0201y_Ru_Q18_Qiyabi_Yekun imtahan testinin sualları  Fənn : 0201y Azərbaycan dili və nitq mədəniyyəti

**1.** Tüstu  sözünün fonetik təhlilindəki səhvləri göstərin:1. 5 səs, 5 hərfdən ibarətdir.2.İkihecalı sözdür, vurğusu birinci hecaya düşür.3. İki incə, dodaqlanan, qapalı sait var.4.Sözdə üç kar samit işlənmişdir.5. Ahəng qanununa tabe olur.

√ 2.4
• 2.3
• 1.2
• 4.5
• 1.5

**2.** Dovşan  sözünün fonetik təhlili ilə bağlı səhv cavabı göstərin:1.6 səs, 6 hərfdən ibarətdir. 2.(o), (a) qalın, açıq saitlərdir.3 cingiltili və bir kar samit işlənmişdir.4. İkihecalıdır, vurğu son hecaya düşür.5.Qalın saitlərin ahəngi gözlənilmişdir.

• 2,3
• 3,5
√ 1.3
• 1.2
• 2,4

**3.** Hansı cərgədə sözlərin sonundakı cingiltili samiti kar qarşılığı ilə əvəz etdikdə sözlərin ikisinin də mənası dəyişir?

√ qəlb, atlaz
• rəng, kitab
• dağ,sənəd
• göy, palaz
• bağ, ağac

**4.** Hansı birləşmənin asılı tərəfinin son samiti cingiltili tələffüz olunur?

√ qılınc ağzı
• palıd qozası
• nəhəng motorlar
• müdrik adam
• kənd həkimi

**5.** Hansı söz birləşmələrinin I tərəfinin son samiti tələffüz zamanı karlaşır:1.palıd qozası,2.palıd ağacı,3.dörd manat,4.dörd uşaq,5.kitab satışı

√ 1,3,5
• 2.5
• 1,3,4
• 2.3
• 2,4,5

**6.** K  hərfi hansı sözdə (g) samitinin kar qarşılığını ifadə edir?

√ çəkic
• ləçək
• seçki
• kassa
• marka

**7.** Verilmiş sözlərdən neçəsində q  hərfi (k) səsini ifadə edir?Məqsəd, qəbul, qəzet, nöqtə, maraq, diqqət, nöqsan,parlaq, yarpaq, qəza

√ 4
• 2
• 3
• 5
• 1

**8.** Hansı hərf bir qrup sözlərdə (k) səsini ifadə edir?

√ q
• g
• x
• y
• ğ

**9.** Cərgələrdən birindəki sözlərdə eyni səs müxtəlif hərflərlə ifadə olunmuşdur:

√ rəqs, kadr
• var, bar
• itki, bitki
• nöqtə, doqquz
• kənd, kağız

**10.** Hansı danışıq səslərinin əmələ gəlməsində hava axını, əsasən, burun boşluğundan çıxır?

√ m,n
• s,ş
• p,b
• v,e
• l,r

**11.** Tərkibində yalnız qapalı saitlər işlənmiş, ahəng qanununa tabe olmayan əsl Azərbaycan sözlərini göstərin:1. Ilan.2. vüqar.3. işıq.4. şüur.5. vacib.6. ilxı

√ 3.6
• 4.5
• 1.6
• 2.5
• 1.2

**12.** Hansı sıradakı sözlərdə incə saitlərin hamısı işlənmişdir?

√ yeni görüşlər
• incə söhbət
• məktəbin həyəti
• enlikürək güləşçi
• döyüş bölgəsi

**13.** Hansı sözdə kar samitlər yanaşı işlənmişdir?

√ hərəkətsiz
• taxta
• bitki
• köçkün
• xəstə

**14.** Hansı cərgədə ahəng qanununun pozulduğu əsl Azərbaycan sözləri verilmişdir?

√ işıq, ilıq, işartı
• şəkil, ömür, beyin
• heca, samit, vasitə
• şəfa, şəlalə, sirdaş
• kitab, medal, sait

**15.** Xəstə sözünün fonetik təhlilindəki səhvi göstərin:

- İkihecalıdır.
- √ Samitlərin üçü də kardır.
- 5 hərf, 5 səsdən ibarətdir.
- (ə)- incə, açıq, dodaqlanmayan saitdir
- Vurğu ikinci hecaya düşür.

**16.** Çıraq sözünün fonetik təhlilindəki səhvi göstərin :

- √ Bir kar (ç), iki cingiltili (r),(q) samitləri işlənmişdir.
- Sözdə qalın, dodaqlanmayan saitlərin ahəngi gözlənilmişdir.
- Saitlərdən biri açıq, digəri qapalıdır.
- İkihecalıdır, vurğu ikinci hecaya düşür.
- Deyilişi ilə yazılışı fərqlənir.

**17.** Ahəng qanunu haqqında verilən fikirlərdən biri səhvdir:

- √ Əsl Azərbaycan sözləri istisnasız olaraq, həmişə ahəng qanununa tabe olur
- Sözdə eynicinsli səslərin bir-birini izləməsinə ahəng qanunu deyilir.
- Ahəng qanunuun kök və şəkilçinin bitişdiyi yerdə daha möhkəm olur.
- Ahəng qanununun tələbinə görə dilimizə məxsus şəkilçilər iki və dörd cür yazılır.
- Ahəng qanunu dilimizin əsas fonetik qanunudur.

**18.** Əlifba...1.hərflərin müəyyən sıra ilə düzülüşüdür.2.şifahi dilin göstəricisidir.3.səslərin öyrənildiyi bölmədir.4.ərəb dilindən alınma sözdür.5.yunan mənşəli sözdür.

- √ 1.4
- 2,3,5
- 2.4
- 1.5
- 1,2,4

**19.** Hansı sözdəki qalın, dodaqlanan, qapalı sait səs uzun tələffüz olunur?

- √ Səbuhi
- xudahafiz
- müsavat
- texnikum
- hovuz

**20.** Sözlərdən hansında cingiltili samit səs iştirak etmir?

- √ həssas
- xasiyyət
- yetərsay
- seçki
- itki

**21.** Hansı sözlərin hamısında ahəng qanunu pozulub?

- √ Samir, sahil, şəlalə
- zənbil, sabun, mərdanə
- qayçı, bəlağət, həzin
- sarmaşıq, mahnı, güzgü
- maşın, sürücü, təhsil

**22.** Neçə sözdə eyni zamanda həm açıq, həm də qapalı sait işlənmişdir? İşıq, balıq, vergül, sərgi, sütun, ömür, zəngin.

- √ 5
- 1
- 4

- 2
- 3

**23.** Saitlərdən birinin uzanması ilə mənası dəyişən sözlər hansı sıradadır?

√ dava, bəzən
- əsir, süfrə
- məna, mina
- kitab, katib
- gəlin, əkin

**24.** Tərkibində yalnız dodaqlanmayan qapalı saitlər olan söz hansıdır?

√ ildırım
- təndir
- qazıntı
- qürub
- Məlahət

**25.** Hansı sözlərin tərkibində yalnız açıq saitlər işlənmişdir?1.yorğun,2.sürü,3.qalın,4.bildirçin,5.dovşan,6.meşə

√ 5.6
- 2.4
- 3.5
- 1.5
- 1.3

**26.** Danışıq səslərinin yaranmasında hansı danışıq üzvləri daha fəal iştirak edir?

√ Dil, dodaqlar, səs telləri
- Ağ ciyər, dodaqlar, səs telləri
- Ağ ciyər, nəfəs borusu, dil
- Dişlər, səs telləri, qırtlaq
- Dişlər, burun boşluğu, ağız boşluğu

**27.** Səadət sözündə neçə səs və neçə hərf vardır?

√ 5 səs, 6 hərf
- 6 səs, 6 hərf
- 4 səs, 6 hərf
- 4 səs, 5 hərf
- 5 səs, 5 hərf

**28.** Hansı sözdə hərflərin sayı səslərin sayından bir vahid azdır?

- dəmir
- alim
- gündüz
- könül

√ radio

**29.** Yalnız kar samitlərdən ibarət olan cərgəni göstərin:

√ p,t,ş,s,x,f
- e,m,ş,s,n,d
- k,z,g,ç,h,j
- x,b,t,v,ş,ğ
- p,f,x,t,q,y

**30.** Hansı sözdəki bütün samitlər kar qarşılığı olmayan cingiltili samitlərdir?

√ limon
• dərman
• hazırlıq
• narşərab
• məcnun

**31.** Hansı sözdə cingiltili qarşılığı olmayan kar samit işlənmişdir?

√ hədiyyə
• fərman
• şəlalə
• çətin
• xatirə

**32.** Cərgələrin birində cingiltili samitin kar qarşılığı səhv verilib:

√ v-p
• j-ş
• z-s
• ğ-x
• g-k

**33.** Cümlədə ahəng qanununa tabe olmayan neçə söz işlənmişdir? Gülzar bir misalın həllində kömək üçün sinif yoldaşı Ramizə müraciət etdi.

√ 4
• 2
• 3
• 5
• 1

**34.** Ahəng qanunu hansı cərgədəki sözlərdə pozulmuşdur?

√ musiqi, insan, hakim
• qələbə, qəsəbə, araba
• odun, boru, möhür
• Kiyev, Bağdad, Berlin
• qaşıq, beşik, zərif

**35.** Hansı sözlərdə yalnız dodaqlanan saitlər işlənmişdir?1.kobud,2.dönüş, 3.aydınlıq,4. uzaq, 5. könül

√ 1,2,5
• 2,3,5
• 2,4,5
• 1,4,5
• 1,2,4

**36.** Hansı cərgədəki sözlərdə qalın saitlərin hamısı iştirak edir?

√ qoyun, arı
• arzu, gül
• otaq, qapı
• ana, qohum
• quzu, qoç

**37.** Yalnız incə saitlər hansı cərgədədir?

√ e,ə,i,ö,ü
• ı,i,u,ü

- o,u,ö,ü
- a,e,o,ö,ə
- a,ı,o,u

**38.** Dil və alt çənənin yuxarıya doğru qalxması nəticəsində ağız boşluğunun daralması hansı saitlərin tələffüzü üçün səciyyəvi xüsusiyyətdir?

√ qapalı
- incə
- açıq
- dodaqlanmayan
- qalın

**39.** a,ə,ö saitlərini birləşdirən nədir?

√ Açıq saitlərdir.
- Qapalı saitlərdir.
- Dodaqlanmayandır.
- İncə saitlərdir.
- Qalın saitlərdir.

**40.** Dilçiliyin danışıq səslərini öyrənən bölməsi necə adlanır?

√ fonetika
- sintaksis
- leksika
- söz yaradıcılığı
- morfologiya

**41.** Hansı sözlərdə cingiltili samit özünün kar qarşılığı kimi tələffüz olunur?1. möhtəşəm,2.poladdan,3.vüqarlı,4.azaddır,5.nəğməkar

√ 2.4
- 1,2
- 3,4,5
- 2,4,5
- 1.4

**42.** Orfoqrafik səhvi göstərin:

√ Məlikməmmədin nağlı
- quzu beyni
- sənin oğlun
- oğulun yaxşısı
- beyinin möcüzələri

**43.** Çiçək sözünə hansı şəkilçi qoşulduqda onun vurğusu dəyişmir?

- –lik
- –li

√ -dir
- – dən
- –lər

**44.** Cümlələrdən birində oğul sözünün kökündəki u hərfi düşməməlidir. Orfoqrafik səhvi tapın:

- Oğlum universitetdə oxuyur.
- Oğlumuz, deyəsən, ağıllanıbdır.
- Onun oğlu bu il məktəbi qurtarır.
- Oğlum yaman dəcəldir.

√ Oğlun pisi-yaxşısı olmur.

**45.** Hansı sıra yalnız vurğu qəbul etməyən şəkilçilərdən ibarətdir?

√ – gil, -madan2 , - casına 2
• –ıl4 , -da2 , -ıntı4
• – dan2 , -dı4 , -sız4
• – lar 2 , -çı 4, -cıl
• –ar,2, -ır 4,-acaq2

**46.** Vurğusu dəyişməklə mənası dəyişməyən sözlər hansılardır? 1.gözlə, 2.xeyli, 3.büzmə,4.azdır,5.damcı,6.sahil

√ 2,5,6
• 1,5,6
• 4,5,6
• 1,3,6
• 2,4,5

**47.** Sözlərdən birində qoşa samitlərdən birincisi kar samit kimi tələffüz olunur:

• fəaliyyət
• güllə
• müəllim
√ saqqal
• təəccüb

**48.** Hansı sözdə kar samit cingiltili tələffüz olunur?

√ hoppanmaq
• qəzet
• kağız
• işdən
• divar

**49.** Bir cox sözlərdə kar samit yanaşı işləndikdə ikinci samit özünün cingiltili qarşılığı kimi tələffüz edilir. Bu qaydaya hansı bənddəki söz uyğun gəlir?

• sehrbaz
• anbar
• şəffaf
√ dəftər

**50.** Sonu qoşasamitli sözlər neçə hecalı olur?

√ bir
• iki
• Belə sözlər müxtəlif hecalı ola bilər.
• dörd
• üç

**51.** Hansı sözlərdə vurğu birinci hecaya düşür?1.həyat , 2.yenə,3.amma,4.əlbəttə,5. bayaq

• 2,3,4
• 1,3,5
√ 2,3,5
• 1,2,4
• 1,4,5

**52.** Sətirdən-sətrə keçirmək üçün hecalara düzgün ayrılmayan sözlər hansı cavabda göstərilib? 1.bə-di-i,2.Dağıs-tan,3.dia-qram,4.a-na,5.sür-ət,6.kitab-larımız

- √ 1.4
- 2,3,5
- 2.3
- 4.5
- 1,2,5

**53.** Hansı söz səhv yazılmışdır?

- √ inqilap
- təəccüb
- sədr
- sətir
- nəsil

**54.** Tələffüzü və yazılışı fərqlənməyən sözü göstərin:

- çiçək
- yarpaq
- külək
- √ kürk
- torpaq

**55.** Polad sözünə bu şəkilçilərdən biri artırıldıqda kökün son samiti (t) kimi tələffüz olunur:

- –a
- –ımız
- √ – da
- –ı
- –in

**56.** Vurğudan asılı olaraq mənası dəyişə bilən sözü müəyyənləşdirin:

- xurma
- barama
- √ qovurma
- tirmə
- məhkəmə

**57.** Vurğusu son hecaya düşən sözü göstərin:

- √ bayraqdar
- sapsağlam
- respublika
- sanki
- yenə

**58.** Dilimizdə vurğunun yeri, əsasən, sözün hansı hecasıdır?

- √ son hecası
- ilk hecası
- həm orta, həm son hecası
- həm ilk, həm orta hecası
- orta hecası

**59.** Sözlərdən birinin hecalara bölünməsi yanlışdır:

- √ qur-ucu-luq
- e-ma-lat-xa-na
- mək-təb-li
- müb-tə-da

- ə-ziz-lə-mək

**60.** Sözdə hecaların sayı necə müəyyənləşdirilir?

√ saitlərin sayına görə
- kar samitlərin sayına görə
- açıq saitlərin sayına görə
- dodaqlanan saitlərin sayına görə
- samitlərin sayına görə

**61.** Verilmiş nümunədə altından xətt çəkilmiş şəkilçilər nəyə aiddir? Bu qala, bizim qala,Bizimdi, bizim qala,Tikmədim özüm qalam,Tikdim ki, izim qala.

√ hal, şəxs, mənsubiyyət, mənsubiyyət
- Hal, şəxs, mənsubiyyət, hal
- Məsubiyyət, mənsubiyyət, hal, şəxs
- Hal, şəxs, zaman, mənsubiyyət
- Mənsubiyyət, şühudi keçmiş,mənsubiyyət, mənsubiyyət

**62.** Bal tutan barmaq yalar cümləsində isimlərin morfoloji təhlilindəki səhvləri göstərin:1. Hər ikisi quruluşca sadədir.2.Hər ikisi nə? sualına cavab verir.3.I adlıq, II təsirlik haldadır.4.Hər ikisi cümlədə mübtədadır.5.Birincisi təsriflənməyən fellə, ikincisi isə təsriflənən fellə əlaqəyə girib.

√ 3.4
- 4.5
- 1.3
- 2.4
- 1.2

**63.** Hissə komandiri kənd camaatı ilə görüşün sonunda əsgərlər adından and içdi ki, tezliklə işğal olunmuş torpaqlarımızı azad edəcəklər cümləsində yiyəlik halda olan neçə söz var?

√ 4
- 3
- 2
- 1
- 5

**64.** Aşağıdakı şəkilçilərdən neçəsi isimdən isim düzəldir?-çı4 , -qı4 ,- daş, - ış4 , -ça 2,-qın4, -sız4

√ 3
- 2
- 4
- 5
- 1

**65.** Feldən düzələn isimləri göstərin:1.cızıq,2.artıq,3.qoruq,4.yozum,5. Sönük,6.uçuq

√ 1,3,4
- 2.4
- 4,5,6
- 1,2,5
- 1,2,3

**66.** İsmin hansı hal şəkilçiləri II və III şəxslərin təkinə aid mənsubiyyət şəkilçiləri ilə omonimdir?

√ yiyəlik və təsirlik
- yiyəlik və yönlük
- təsirlik və çıxışlıq
- adlıq və təsirlik
- adlıq və yiyəlik

**67.** Neft sözünün təsirlik halda işləndiyi cümlə hansıdır?

- √ Bakı nadir neft istehsal edir.
- Neft Daşlarında işləmək fədakarlıqdır.
- Respublikamızdan xaricə xeyli neft daşınır.
- Azərbaycan nefti çox ölkələrdə məşhurdur.
- Azərbaycanın əsas sərvəti neftdir.

**68.** Səhv fikir hansıdır?

- √ Yerlik və çıxışlıq halda olan isimlər cümlənin yalnız tamamlığı və zərfliyi ola bilir.
- Mübtəda ancaq adlıq halda ola bilər.
- Yerlik halda olan söz qoşmalarla işlənə bilmir.
- Qeyri-müəyyən yiyəlik halda olan söz ayrılıqda heç bir cümlə üzvü ola bilməz.
- Təsirlik halda olan sözlər cümlənin xəbəri ola bilməz.

**69.** Hansı cümlələrdə mənsubiyyət şəkilçisi qəbul etmiş iki söz işlənmişdir?I Vaqifin qardaşı kitabını bizə bağışladı.II.Vaqifin qardaşı bizə məktəbi göstərdi . III.Vaqifin qardaşı fəxrimizdir.

- √ I və III
- III
- II
- I
- I və II

**70.** Ev ismi hansı cümlədə adlıq haldadır?

- √ Kəndimizin evləri çiy kərpicdəndir.
- Evləri təmir etməyə başlamışıq.
- Dostun evini dəyişir?
- Evin divarları nəmdir.
- Ustalar kənddə ev tikirlər.

**71.** Artıq tamah daş yarar,Daş qayıdar baş yarar. Cümlədəki isimlər hansı haldadır?

- √ adlıq və təsirlik
- təsirlik
- adlıq və yiyəlik
- yiyəlik
- adlıq

**72.** Neçə söz yalnız mənsubiyyət şəkilçisi qəbul etdikdə ikinci hecasındakı sait səs düşür?Boyun, sinif, zehin, eyib,ətir, səbir, qarın, ağız, fəsil, fikir, sətir, burun.

- √ 4
- 8
- 3
- 7
- 8

**73.** Qeyri-müəyyən təsirlik hala aid edilən əlamətlərdən biri səhvdir

- √ II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işlənə bilər.
- nə? sualına cavab verir.
- Cümlədə vasitəsiz tamamlıq olur.
- Həmişə təsirli feldən əvvəl gəlir.
- Şəkilçisi yoxdur.

**74.** Təsriflənən fellərlə əlaqəyə girməyən halı göstərin:

- √ yiyəlik
- yönlük
- təsirlik
- yerlik
- adlıq

**75.** Aşağıdakılardan hansı yalnız isim kimi işlənir?

- √ satış
- barış
- alış
- görüş
- vuruş

**76.** İsmin çıxışlıq halına aid edilən fikirlərdən biri doğru deyil:

- √ Cümlənin ismi xəbəri ola bilmir.
- Omonim şəkilçi olan -dan2 şəkilçisi ilə düzəlir, kimdən?, nədən?, haradan? suallarindan birinə cavab verir.
- Mənasına görə yönlük halın əksini bildirir.
- Sonu "m" və "n" ilə bitən sözlərə qoşulduqda (-nan2) kimi tələffüz olunur.
- Hərəkətin çıxış və başlanğıc nöqtəsini bildirir.

**77.** Tərkibindəki sözlərdən birincisi qeyri-müəyyən yiyəlik hal, ikincisi isə mənsubiyyət şəkilçili isimlərdən yaranmış mürəkkəb sözü göstərin:

- √ balıqqulağı
- günəbaxan
- beşmərtəbə
- əliaçıq
- qaratoyuq

**78.** Cəm şəkilçisi qəbul edə bilməyən bütün isimləri müəyyənləşdirin:1. dərslik,2.həkimlik,3.mərdlik,4.sözlük,5.illik,6.gözlük

- √ 2.3
- 2,3,5,6
- 1.4
- 2,3,5
- 1,4,5

**79.** Toplu isimləri göstərin: 1.çiçək, 2.camaat, 3.yoldaşlıq, 4.ordu, 5.təpə,6.göl, 7.millət,8.torpaq, 9.kol

- √ 2,4,7
- 1,3,7,9
- 2,5,6,8
- 1,5,7
- 2,3,4,5

**80.** İsmin hansı halında olan sözlər təklikdə tamamlıq ola bilmir?

- √ yiyəlik
- yönlük
- təsirlik
- yerlik
- çıxışlıq

**81.** İsmə məxsus aşağıdakı şəkilçilərin sözlərə qoşulma ardıcıllığını müəyyənləşdirin:1. hal, 2. cəm, 3.xəbərlik (şəxs),4.mənsubiyyət

- √ 2.4,1,3
- 3,4,1,2

- 4,2,1,3
- 4,1,2,3
- 1,2,3,4

**82.** İsmin hansı halında olan söz xəbər vəzifəsində çıxış edə bilməz?

√ təsirlik
- çıxışlıq
- yiyəlik
- yerlik
- adlıq

**83.** Sözlərdən biri xəbərlik (şəxs) şəkilçisi qəbul etmişdir:

√ həkiməm
- gözüm
- könlüm
- sözləri
- anam

**84.** Qeyri-müəyyən yiyəlik halda işlənmiş isimlərdən birini müəyyən yiyəlik hala çevirmək olmur:

√ müstəqillik arzusu
- Ələsgər şeiri
- dağ havası
- dost rəyi
- qrup rəhbəri

**85.** Hansı sözdə birinci şəxsin təkinə aid mənsubiyyət şəkilçisi işlənmişdir?

- balacayam
- getməliyəm
- ustayam

√ anam
- kaş gedəm

**86.** Hansı nümunədə isim mənsubiyyətə görə dəyişməmişdir?

√ şagirdəm
- evin
- fikrim
- vərəqi
- kitabımız

**87.** Hansı cümlə xüsusi isimlə başlanır?

√ Yerdən uzaqlaşan kosmik gəmi görünməz oldu.
- Yerdən götürdüyüm karandaş Sevilin idi.
- Yerdən ot dizə qədər qalxmışdı.
- Yerdən yerə çox fərq var.
- Yerdən danışmayın, əl qaldırın.

**88.** Verilənlərdən hansı mürəkkəb addır?

√ 18 oktyabr
- Bakı şəhərdir.
- Azəroğlu
- adam olmaq
- Ağasəlim

**89.** Konkret isimləri göstərin:

√ ələk, ağac
• düşüncə, duyğu
• xeyirxahlıq, istək
• dostluq, kədər
• sevgi, həyat

**90.** Mücərrəd mənalı ismi göstərin:

√ qorxu
• qoruq
• meydança
• gözlük
• bitki

**91.** Hansı söz mürəkkəb isim deyil?

√ dalbadal
• vurhavur
• basabas
• qaçaqaç
• gəlhagəl

**92.** Sözlərdən biri toplu isim deyil:

√ salxım
• naxır
• sürü
• xalq
• kütlə

**93.** İsmin hansı halları qrammatik mənasına görə bir-birinin əksini təşkil edir?

√ yönlük, çıxışlıq
• yiyəlik, təsirlik
• yiyəlik, yerlik
• adlıq, təsirlik
• adlıq, yönlük

**94.** İsmə aid göstərilən əlamətlərdən biri səhvdir:

√ Cümlədə ancaq mübtəda və tamamlıq vəzifəsində işlənə bilir.
• Mücərrəd və konkret olur.
• Hallanır.
• Xəbərlik (şəxs) şəkilçilərini qəbul edir.
• Əşyanın adını bildirir

**95.** İsim hansı cümlə üzvü vəzifəsində işlənə bilir?

√ bütün cümlə üzvləri
• tamamlıq
• təyin
• xəbər
• mübtəda

**96.** Səhv fikir hansıdır? İsimlər....

√ əşyanın tərzini bildirə bilər.
• cümlənin mübtədası ola bilər.

- kim?, nə? suallarına cavab verə bilər.
- cümlənin xəbəri ola bilər.
- sifətləşə bilər.

**97.** Sözlərdən biri omonimlik xüsusiyyəti daşıyaraq, isim və fel kimi işlənə bilir:

√ ağrı
- alın
- əkin
- bilək
- əsər

**98.** Hansı cərgədəki söz birləşmələrinin hamısında I tərəflər məcazi mənada işlənmişdir?

- ağır xasiyyət,qızıl ürək, soyuq hava
- yüklü tale, soyuq hava, ağır yük

√ ağır xasiyyət, qızıl ürək, soyuq münasibət
- ağır yük, acı meyvə, şirin söhbət
- kamil insan, torpaq yol, yüklü qatar

**99.** Qalibiyyət sözünün leksik təhlili ilə bağlı düzgün fikirləri seçin:1.Köhnəlmiş sözdür.2.Alınma sözdür.3.Antonimi vardır.4.Omonim kimi işlənə bilir.5. Qabiliyyət sözünün sinonimidir.6.Müstəqil leksik mənaya malikdir.

√ 2,3,6
- 2,4,6
- 1,3,5
- 5,6
- 3.4

**100.** Sözlərdən biri omonimlik xüsusiyyəti daşıyaraq, fel və sifət kimi işlənə bilər:

√ sağ
- dağ
- çat
- yar
- yağ

**101.** Biri həm omonim, həm də çoxmənalı söz kimi işlənə bilər:

√ kök
- nəbz
- durna
- baş
- zindan

**102.** Çoxmənalı sözlər cərgəsini göstərin:

√ baş, diş, burun
- daraq, çay, top
- qaz, gül, qurd
- göz, dolu, tar
- qapı, gəmi, tel

**103.** Zəif sözünün leksik təhlili ilə bağlı səhv fikirləri göstərin: 1. Alınma sözdür. 2.Leksik mənasına görə gücsüz deməkdir. 3.Təkmənalı sözdür. 4. Qorxaq , cəsarətsiz sözləri ilə sinonimdir. 5.Antonimi yoxdur.

√ 3,4,5
- 2.4
- 1,2,4
- 1,2,3

- 1.3

**104.** Frazeoloji birləşmələr haqqındakı səhv fikri göstərin:

- √ Dildə hazır şəkildə olmur, yalnız nitq prosesində yaranır.
- Belə birləşmələrin tərkibindəki sözlər öz həqiqi mənalarını itirib məcazi mənada işlənir.
- Bütövlükdə cümlənin bir üzvü olur.
- Nitqə xüsusi ifadəlilik və canlılıq gətirir.
- Tərəfləri birlikdə bir leksik mənanı ifadə edir.

**105.** Hansı sözləri yerinə görə həm arxaik, həm də ümumişlək hesab etmək olar? Ozan, 2.ağac,3.dəli,4.pendir,5.tramvay,6.qopuz,7.donluq

- √ 2,3,7
- 3.4
- 2,3,6
- 1,6,7
- 1,2,3

**106.** Hansı xüsusiyyətlər, əsasən, alınma sözlərə aiddir?1.Ahəng qanununun gözlənilməsi,2.Eynicinsli qoşa saitlərin işlənməsi,3.Sözün r samiti ilə başlanması,4.Vurğunun son hecaya düşməsi,5. Uzun saitlərin olması

- √ 2,3,5
- 1,4,5
- 2.4
- 3,4,5
- 1.3

**107.** Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir? 1.mürəkkəb, 2.nəticə, 3.qurd, 4.yaş,5.çay,6.şam

- √ 1.4
- 4.5
- 2.3
- 1,6
- 3,6

**108.** Sözlərdən neçəsi çoxmənalıdır?Almaq, qaş,səyyah, göz, qar, şeir, sahil

- √ üçü
- dördü
- beşi
- altısı
- ikisi

**109.** Əhvalat sözünün leksik təhlilində harada səhvə yol verilmişdir?

- √ Sinonimi yoxdur.
- Alınma sözdür
- Antonimi yoxdur.
- Ümumişlək sözdür
- Leksik və qrammatik mənaya malikdir.

**110.** Köhnəlmiş sözlər cərgəsini göstərin:

- √ yağmalamaq, suç, güz
- sürü, qoyun, quzu
- qapı, qaymaq, qonur
- yanacaq, çırpı, odun
- dəsmal, döşəmə, tavan

**111.** İmtahan sözünün leksik təhlilindəki səhvi göstərin:

- “sınaq” və “yoxlama” sözləri ilə sinonimdir.
- Ümumişlək sözdür
- Alınmadır.
- √ Termindir
- Antonimi yoxdur.

**112.** Nümunələrdən neçəsi frazeoloji birləşmədir?Təpəyə qalxmaq, çayın sahili, üzə durmaq, başa salmaq, kitabın cildi, maraqlı kitab, qara yaxmaq, gözə gətirmək.

- √ 4
- 3
- 6
- 2
- 5

**113.** Sözlərdən neçəsi yalnız termin kimi işlənə bilər?Sifət, xəbər, poema, qrammatika, ada, say, boğaz, sinif.

- √ 2
- 6
- 5
- 4
- 3

**114.** Hansı cərgədəki sözlərin ikisi də çoxmənalıdır?

- √ üz, burun
- bel, çəki
- sel, su
- yağış, dolu
- ayaq, insan

**115.** Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir? 1. Bal,2.tut,3.çən,4.top,5.əqrəb,6.yol

- √ 2,6
- 1.4
- 2,3,4
- 4.5
- 1,3,5

**116.** Birləşmələrin hansında asılı tərəf həqiqi mənada işlənmişdir?

- güclü cavab
- çiy söz
- √ qızıl üzük
- qızıl payız
- yumşaq xasiyyət

**117.** Hansı cərgədəki sinonimlər həmişə bir-birini əvəz edə bilir?

- √ eynək, çeşmək
- dava, müharibə
- ürək, könül
- gözəl, göyçək
- yoxlamaq, sınamaq

**118.** Türk mənşəli çağdaş sözü hansı alınma sözün qarşılığıdır?

- √ müasir
- mötəbər

- mütərəqqi
- humanist
- mübariz

**119.** İsimlərdən ibarət sinonim cərgəni göstərin:

- tez-sürətlə, asta-yavaş
- ayrı-başqa, amma-ancaq
- √ arzu-istək, gözlük-çeşmək
- gödək-qısa, qoca- yaşlı
- almaq-götürmək, atmaq-tullamaq

**120.** Dilotu yemək frazeoloji birləşməsinin antonimi hansıdır?

- √ ağzına su alıb oturmaq
- dilə gəlmək
- dil-boğaza qoymamaq
- dil tökmək
- dilə-ağıza düşmək

**121.** Çoxmənalı sözlər nədir?

- √ Əsas məna ilə bağlı əlavə məna da bildirən sözlərdir.
- Müxtəlif mənalı ayrı-ayrı sözlərdir.
- Əks mənalı sözlərdir.
- Eyni və ya yaxın mənalı sözlərdir.
- Yazılışı və deyilişi eyni, lakin mənaları müxtəlif olan sözlərdir.

**122.** Sinonim və antonimlər üçün ortaq xüsusiyyət hansıdır?

- √ eyni nitq hissəsinə aid sözlərdən ibarət olmaq
- bir- biri ilə müəyyən bağlılığı olan sözlərdən təşkil olunmaq
- eyni mənaları bildirmək
- bir-birinə əks mənaları bildirmək
- bir-birinə yaxın mənaları bildirmək

**123.** Hansı sözün müstəqil leksik mənası yoxdur?

- √ habelə
- əmr
- dağ
- maral
- lalə

**124.** Qara sözü hansı variantda məcazi mənada işlənmişdir?

- qara portfel
- qara pişik
- √ qara gün
- qara parça
- qara torpaq

**125.** Yumşaq və sərt sözləri hansı sırada həqiqi mənada işlənmişdir?

- √ yumşaq saç, sərt qaya
- yumşaq səs, sərt təbiət
- yumşaq cəza, sərt hərəkət
- yumşaq xasiyyət, sərt baxış
- yumşaq rəftar, sərt iqlim

**126.** Dialekt sözləri nədir?

- √ Məhəlli xarakterli sözlərdir.
- • Bir-birinə əks mənalı sözlərdir.
- • İxtisas, peşə ilə əlaqədar sözlərdir.
- • Nitqdə, əsasən, hamı tərəfindən işlədilən sözlərdir
- • Bir-birinə yaxın mənalı sözlərdir.

**127.** Biri neologizmdir:

- • yenilikçi
- • zərbəçi
- √ fayl
- • ləqəb
- • təxəllüs

**128.** Əsl Azərbaycan sözlərindən ibarət cərgəni göstərin:

- • alınma sözlər
- • neologizmlər
- • dialekt sözləri
- √ köhnəlmiş sözlər
- • terminlər

**129.** Frazeoloji birləşməni seçin:

- √ ürəyini qırmaq
- • fikrini bildirmək
- • arxayın olmaq
- • başını tərpətmək
- • qolunu kəsmək

**130.** Arşı , güz , damu sözləri aşağıdakı söz qruplarından hansına aiddir?

- √ köhnəlmiş sözlər
- • terminlər
- • alınma sözlər
- • neologizmlər
- • dialekt sözləri

**131.** Sözlərdən yalnız biri omonim kimi işlənə bilir:

- √ yağ
- • atlas
- • altı
- • həyat
- • qəzəl

**132.** Sinonim sözlər cərgəsini göstərin:

- √ hündür, yüksək, uca
- • göz, qaş, baş
- • səhər, axşam, gündüz
- • həkim, hakim, sənəd
- • ləpə, çay, dəniz

**133.** Qarmonun dili və uşağın dili birləşmələrindəki dil sözü aşağıdakılardan hansına aiddir?

- • sinonim
- • təkmənalı söz

- √ çoxmənalı söz
- omonim
- antonim

**134.** Hansı sıradakı sözlər antonim deyil?

- √ yatmaq-qızarmaq
- açmaq-bağlamaq
- ağarmaq-qaralmaq
- almaq-vermək
- küsmək-barışmaq

**135.** Təkmənalı sözü göstərin:

- √ ürək
- burun
- ağız
- ayaq
- qol

**136.** Biz gündəlik nitqimizdə, əsasən, hansı sözlərdən istifadə edirik?

- alınma sözlərdən
- neologizmlərdən
- √ ümumişlək sözlərdən
- dialekt sözlərindən
- terminlərdən

**137.** Cümlələrdən birində say təyin vəzifəsindədir:

- Birdən qapı döyüldü.
- √ Yeddi gün bir həftədir.
- Min yeyənin olsun, bir deyənin olmasın.
- İkiyə bölünməkdən elə qorxmuşam, çöpü də ikiyə bölmərəm daha.
- Onuncuları qarşıda imtahan gözləyir.

**138.** Sayla bağlı doğru olmayan fikri göstərin:1.Kəsr sayları quruluşuna görə yalnız tərkibi olur.2.Saylar isimləşdikdə yalnız hal şəkilçisi qəbul edir.3.Düzəltmə saylar yalnız saylardan yaranır.4.Bütün saylarla isim arasına numerativ sözlər artırmaq olar.5 90- cı illər birləşməsində konkretlik yoxdur.6.Sıra sayları quruluşuna görə sadə, düzəltmə, mürəkkəb olur.

- √ 2,4,6
- 1,2,3
- 4,5,3
- 1,3,5,6
- 1,2,3,6

**139.** Cümlələrin birində numerativ söz kəmiyyət fərqi yaratmayıb:

- √ Xörəyə çoxlu soğan doğradılar.
- İlham iki cüt ayaqqabı aldı.
- İndi üç kisə şar gətirdilər
- Get özünə iki dəst kostyum al.
- Sabir bir qucaq odun gətirmişdi.

**140.** Omonim olan sayları seçin: 1.əllinci, 2.min,3. qırx, 4.doxsan, 5.yüz, 6.səksən,7.otuz

- √ 2,3,6
- 2,5,6
- 3,4,5
- 3,4,5

- 1,2,7

**141.** Verilən saylardan neçəsinin yazılışı ilə deyilişi fərqlənir?Altı, səksən, doqquz, dörddə bir, trilyon, iyirmi, doxsan, yüz əlli, xeyli, bir qədər, üçdə bir

- beşlərim
- beşlərə
- beşlərdə
- beşincilərə
- √ beşinçilərimin

**142.** Biri say deyil:

- on-on beş
- yüzlərcə
- √ birgə
- çoxlu
- xeyli

**143.** Hansı sıra sayının yazılışı səhvdir?

- 5 –ci
- 5)
- √ 5-inci
- V
- Beşinci

**144.** Bu sözlərdən neçəsi say, həm də zərf kimi işlənə bilir: çox, bir, on, bir qədər, bir cox, az, xeyli, az-cox, bir az, bir-bir, birə- beş, yüzlərlə

- √ 6
- 3
- 5
- 4
- 7

**145.** Oğlanın üzü və əli qapqara, saçı isə qıvrım idi cümləsindəki sifətlərin morfoloji təhlili ilə bağlı səhv haradadır? 1.Hər ikisi sadə sifətdir.2. Biri çoxaltma dərəcəsindədir.3.Biri təyin, ikincisi isə xəbərdir.4.Zahiri görkəm bildirirlər.5.Biri sadə, biri mürəkkəb sifətdir.

- √ 3.5
- 2.4
- 4,5
- 3.4
- 1.2

**146.** Cümlələrdən birində sifətə yalnız hansı sualını vermək olar:

- Yaxşı oğul nə edər ata malını.
- Armudu stəkanı xoşlamadım.
- Doğru söz acı olar.
- √ Dünənki hadisə bizi bərk qorxutdu.
- Qabiliyyətli tələbə hamının fəxridir

**147.** İsimləşmiş sifətə aid xüsusiyyət deyil:

- ismə məxsus bütün hal, cəm, mənsubiyyət, şəxs, xəbərlik şəkilçilərini qəbul edə bilmək
- təyin ola bilməmək
- sifətin suallarını tamamilə itirmək
- cümlədə mübtəda, tamamlıq, xəbər olmaq
- √ morfoloji cəhətdən isim sayılmaq

**148.** Çadırdakılar qocanın qızıl saatına diqqətlə baxırdılar cümləsində neçə sifət işlənmişdir?

- √ 2
- • 5
- • 4
- • 3
- • 5

**149.** Pisə pis demişəm, yaman demişəm,Yaxşıya yaxşılıq etmişəm hər gün ,Şeir parçasında neçə sifət var?

- √ 4
- • 2
- • 3
- • 1
- • 5

**150.** Sözlərdən biri sifət deyil:

- • qaçağan
- • qısqanc
- √ burulğan
- • qabaqcıl
- • gəzəyən

**151.** Hansı sifətdə vurğu son hecaya düşmür:

- • uzunsov
- • publika
- √ qupquru
- • körpəcə
- • qırmızımtıl

**152.** Aşağıdakılardan birini mürəkkəb sifət kimi işlətmək olmaz:

- √ dilbədil
- • yanbayan
- • rəngarəng
- • cürbəcür
- • növbənöv

**153.** Dağıntı, dağılmaq, yapış....Məntiqi ardıcıllığı tamamlayın :

- √ saxla
- • başla
- • tikinti
- • çöküntü
- • gözlə

**154.** –gil, - sız, - kı, -dakı şəkilçiləri ilə bağlı fikirlərdən hansılar səhvdir?1. Leksik şəkilçilərdir. 2.Hamısı dörd cür yazılan şəkilçilərdir.3. Qrammatik şəkilçi kimi də istifadə etmək olar. 4.Sözə qrammatik şəkilçilərdən sonra da qoşula bilərlər.5. Şəkilçilərdən biri həm isim, həm də sifət düzəldə bilər.

- √ 2.3
- • 2,3,5
- • 1,2,3
- • 1,4,5
- • 2,3,4

**155.** Başlanğıc formada olan sözləri göstərin:1.ovçuluq, 2. Buruqları, 3. zavodların ,4. bağbanın ,5. Qardaşlıq,6. məktəblilərə,7. Güldandakı, 8. Evdarlıq

√ 1,5,7,8
• 2,3,4,5
• 1,4,5,6
• 1,5,6,7
• 1,2,3,4

**156.** Düzgünlük sözünün kökü hansı nitq hissəsidir?

√ fel
• sifət
• əvəzlik
• ədat
• isim

**157.** Qrammatik şəkilçilərdən sonra da işlənə bilən leksik şəkilçilər hansılardır?

√ – gil, -dakı 2 , - kı4
• –ma 2,- ış4 , -ban
• –cıl4, -qan,- kən
• –la2, - ağan, - əyən
• – ça2, -ca 2, -lan2

**158.** Alınma şəkilçilər haqqında hansı fikir düzgündür?

√ Yalnız leksik şəkilçilərdən ibarət olub, bir cür yazılır.
• Həm leksik, həm də qrammatik şəkilçilər alınma ola bilər.
• Dörd cür yazılır
• Dilimizə yalnız feldən isim düzəldən şəkilçilər keçə bilir.
• Dilimizdə yalnız fars dilindən alınma şəkilçilər işlənir

**159.** Hansılar sadə sözlərdir?1.bürkü, 2.seçki, 3.əski,4.ölçü,5.tülkü, 6.içki

√ 1,3,5
• 2,3,5
• 3,4,6
• 1,2,5
• 1,3,6

**160.** Kitabxanadakıları sözünün başlanğıc formasını göstərin:

• kitabxanadakılar
• kitabxana
• kitabxanada
• kitab
√ kitabxanadakı

**161.** Hansı cərgədəki sözlər eyniköklüdür?

√ başçı, başlamaq, başlıq
• bağça, bağırtı, bağlamaq
• ovçu, ovlaq, ovuc
• gülüş, güllük, güldan
• gözlük, gözəl, gözləmək

**162.** Başqa dillərdən Azərbaycan dilinə hansı şəkilçilər keçmir?

√ qrammatik şəkilçilər
• ön şəkilçilər
• isimdən sifət düzəldən şəkilçilər

- leksik şəkilçilər
- bir cür yazılan şəkilçilər

**163.** Qaç sözünə qoşula bilən şəkilçilərdən hansılar leksik şəkilçilərdir?1. –qın, 2.– ış, 3.– dı, 4.–ır, 5.– ağan

√ 1,2,5
- 3,4
- 2,3,5
- 1,4,5
- 1,3

**164.** Sözlərdən hansı diğərləri ilə eyniköklü deyil?

√ işarə
- işlək
- işsiz
- işcil
- işçi

**165.** Nitq hissələri haqqında verilmiş fikirlərdən biri səhvdir:

√ Bütün nitq hissələri suala cavab verir.
- Nitq hissələri dilçiliyin morfologiya şöbəsində öyrənilir
- Köməkçi nitq hissələri yalnız qrammatik mənaya malikdir
- Əsas nitq hissələrinin həm leksik, həm də qrammatik mənası olur.
- Sözlər daşıdıqları leksik-qrammatik mənaya görə nitq hissələrini əmələ gətirir.

**166.** Azərbaycan dilində sözün tərkibi neçə hissədən ibarət olur?

√ 2
- 3
- 4
- 5
- 1

**167.** Morfologiyada nə öyrənilir?

√ sözün tərkibi, nitq hissələri və onların dəyişmə qaydaları
- yalnız sözün tərkibi
- yalnız nitq hissələri
- sözlərin mənşəyi
- söz birləşmələri və cümlələr

**168.** Əkinçilikdən sözünün başlanğıc formasını göstərin:

√ əkinçilik
- əkin
- əkinçi
- əkinçilikdən
- ək

**169.** Bir cür yazılan şəkilçini göstərin:

√ -daş
- –lı
- –lar
- –ımız
- –ın

**170.** Alınma şəkilçili söz hansıdır?

- √ nəğməkar
- küləkli
- sərinlik
- şəhərli
- üzümçü

**171.** Ön şəkilçilər hansı cərgədədir?

- √ – ba,-bi,-na,-anti
- – poli, -anti,-keş,-kar
- –mış,-ar,-acaq,-ıb
- –lar,-lıq,-laş,-la
- –ar, -maz,-inca,-araq

**172.** İki cür yazılan şəkilçilərin tərkibində hansı saitlər işlənir?

- √ a,ə saitləri
- yalnız qapalı saitlər
- açıq saitlərin hamısı
- incə saitlər
- bütün saitlər

**173.** Zərfi əvəz edən əvəzlik hansı cümlədədir?

- Sənin nə dediyini ayırd edə bilmədim.
- Elə mən də bunu deyirdim.
- √ Nə vaxt təzə binaya köçəcəyik?
- Mən səninlə birgə bu yolu gedəcəyəm.
- Kimsə təkbaşına bu işin öhdəsindən gələ bilməz.

**174.** Hallana bilən qeyri-müəyyən əvəzliklər verilmiş variantı göstərin:

- √ biri, hamı, hər şey
- siz, belə, elə, bəzi
- hərə, hamı, kim isə
- nə isə, kim isə, hər
- hər biri, heç kəs, kim isə

**175.** Ay özünü bəyənmiş, qoy səni el bəyənsin cümləsində əvəzliyin hansı növü işlənmişdir?

- √ təyini, şəxs
- şəxs, sual
- təyini, qeyri-müəyyən
- qeyri-müəyyən , şəxs
- təyini, sual

**176.** Hansı əvəzliklər yalnız mənsubiyyət şəkilçisi qəbul edəndən sonra hallanir?

- hamı, hərə, hər şey
- bütün, filan
- √ elə, belə, bəzi
- o, bu, həmin
- kim isə, nə isə

**177.** Təyini əvəzlik hansı cümlədədir?

- Kimsə kimsənin nəsibini yeməz.
- Çox o yan- bu yan elədilər.
- Atası qızını hec kimə vermir.

- Özgə atına minən tez düşər.
- √ Hər ağlar gözlüyə aşiq deməzlər.

**178.** Hansı cümlədə o əvəzliyi ismin yerində işlənib?

- İndi də o ağac keçmiş günlərinin yadigarı kimi əvəzlənirdi.
- Elə o halda danışmaqdan doymurdu.
- √ O, həmişə səliqəlidir.
- O kitab mənimdir.
- O günləri unutmaq olarmı?

**179.** Əvəzlikləri seçin: 1.Onun ,2.Bizimki,3.Haranız ,4.Hər vaxt,5.Bütün, 6.Filan

- √ 1,3,5,6
- 1,4,5,6
- 2,3,5,6
- 2,4,6
- 1,2,3,5

**180.** Yazıçılıq sözünün morfoloji təhlili ilə bağlı yanlış fikri tapın:

- √ Feldən düzələn isimdir.
- Təkdədir.
- Başlangıc formadadır
- Tərkibində üç dənə dörd çür yazılan şəkilçi var.
- Sənət, peşə mənası bildirir.

**181.** Üzümçülük rayonu birləşməsində üzümçülük sözünün morfoloji təhlilindəki səhvi göstərin:

- Düzəltmə isimdir.
- Ümumi,mücərrəd isimdir.
- İsimdir, nə? sualına cavab verir.
- √ Adlıq haldadır, təkdir.
- Başlanğıc forması: üzümçülük.

**182.** Sözlərdən neçəsi feldən düzələn isimdir?Qovurma, çalğı, meydanca, vurma, baxış, duyğu, kəskin,əzik, biçin.

- ikisi
- üçü
- dördü
- beşi
- √ altısı

**183.** Aşağıdakı sözlər içərisində neçə a) düzəltmə və neçə b) mürəkkəb isim var?Qardaşlıq, söhbətçil, dördbucaqlı, seçici, dost-tanış, sürətli, qaraquş, çəmənlik, yanbayan, meşəbəyi, əməkdar, daşlıq, sahildəki

- √ a-4, b-3
- a-6, b-4
- a-5, b-5
- a-4, b- 4
- a-8, b-5

**184.** Cümlələrdə hansında ısım həm mənsubiyyət, həm də yiyəlik hal şəkilçisi qəbul etmişdir?1.Quyunun dibi görünür.2.Dəniz suyunun səviyyəsi artır.3.Üzun şişi çəkilibdir.4.Almanın şirəsi şirindir.

- √ 2.3
- 1,4
- 1.3
- 3.4
- 2,4

**185.** Hansı şəkilçilər meydan sözünə qoşularkən fərqli tələffüz yaranır?1. cəm şəkilçiləri,2.yerlik hal şəkiçisi,3.yönlük hal şəkilçisi,4.çıxışlıq hal şəkliçisi,5.birinci şəxsin təkinə aid mənsubiyyət şəkilçisi

- 4.5
- 1.4
- √ 1,4,
- 1,4,5,
- 2,3,

**186.** Hansı şəkilçi isim, sifət, say və əvəzlikdən isim düzəldə bilir?

- √ – lıq4
- - daş
- - çı4
- – qı 4
- -da 2

**187.** Sözlərin neçəsi mürəkkəb isimdir? Qiraətxana, meşəliklər, heyvandarlıq, mehmanxana, gündəlik, günəbaxan, qaratikan, qəhrəmanlıq, xeyirxah, qardaşlıq.

- √ 2
- 3
- 5
- 7
- 4

**188.** Aşağıdakı isimlərdən hansına saitlə başlanan şəkilçi qoşulduqda sözün sonundakı samit ğ-ya çevrilmir? 1.üfüq, 2.qazax, 3.qonaq, 4.qaşıq, 5.Yevlax, 6.vərəq

- 1,3,5
- 1,4,5
- √ 1,2,5,6
- 1.6
- 4,5,6

**189.** Basqın , yanğın, qırğın.....Məntiqi ardıcıllığı tamamlayın:

- coşqun
- yorğun
- √ sürgün
- ötkün
- tutqun

**190.** Feldən düzələn isimlərin cərgəsini göstərin:

- biçin, başlıq
- qazma, zəriflik
- √ tanış, ələk
- döyüş, yaylaq
- birlik, əkin

**191.** İsmin əsas xüsusiyyətlərinə aid doğru fikirlər hansılardır?1. İsimlər tək və cəm olur.2.Cümlədə yalnız mübtəda olur.3.Mənsubiyyətə görə dəyişir.4.Hallanır.5.İsimlər quruluşça yalnız sadə və mürəkkəb olur.

- √ 1,3,4
- 1,4
- 4.5
- 1,3
- 1,2,3

**192.** Hansı cərgədəki şəkilçiləri uç felinə artırmaqla düzəltmə isimlər yaratmaq olar?

√ – uş,-qun
• –uq, -ur
• –an,-aq
• – ucu, -ar
• –uş,-ul

**193.** Cəm şəkilçisi qəbul etməyən toplu isimləri seçin: 1.əhali,2.ordu,3.camaat,4. xalq, 5.millət

√ 1.3
• 2.4
• 3,5
• 2,5
• 1

**194.** Sadə ismi göstərin:

√ yoxuş
• baxış
• satış
• dilək
• qoruq

**195.** Çalağan göydə dolanar, cücənin ürəyi bulanar cümləsindəki feillər haqqında deyilənlərdən hansılar düzdür?1.Hər ikisi düzəltmə feildir.2.Hər ikisi hal- vəziyyət bildirir.3.Biri düzəltmə, digəri isə frazeoloji birləşmədir.4.Hər ikisi təsirli feildir.5.Hər ikisi təsdiq feilidir.

• 3.4
• 1.5
√ 3.5
• 1,2,3
• 1,2,4

**196.** Körpənin yanağı qızarmışdı cümləsində feil haqqında verilən düzgün fikirləri müəyyənləşdirin: 1.Sadə feildir.2.Qayıdış növdədir.3.Təsirsizdir.4.Şühudi keçmiş zamandadır.5.Xəbər şəklinin hekayəsindədir.

• 1,2,4
• 2,4
• 1,3,4
• 2.5
√ 1,3,5

**197.** Qandırmaq və qanatmaq feilləri haqqında səhv fikirləri seçin:1.Hər ikisi təsirli feildir.2.Hər ikisi feildən əmələ gəlmişdir.3.Eyniköklü sözlərdir.4.Hər ikisi icbar növdədir.5.Hər ikisi quruluşca düzəltmədir.

• 2.4
• 2,3
• 1.2
√ 3.4
• 4,5

**198.** Göndərildi feilinin morfoloji təhlilindəki səhvləri göstərin:1.Məchul növdədir.2.Üçüncü şəxsin təkindədir.3.Quruluşca sadədir.4.Təsirlidir.5.Şühudi keçmiş zamanda işlənib.6.Xəbər şəklinin hekayəsindədir.

• 2,4,6
• 1,3,4
• 2,4,5
• 2,3,6
√ 3,4,6

199. – ıb4 şəkiçisi ilə düzələn feili bağlamalara aid edilmiş xüsusiyyətlərdən biri səhv göstərilmişdir:

√ Bu şəkilçi ilə düzələn feili bağlamalara "idi" hissəciyi artırmaq olur.
• – araq2 şəkilçili feili bağlamalarla qrammatik cəhətdən sinonimdir.
• Daha çox əsas feildəki hərəkətin tərzini və səbəbini bildirir.
• İşin əsas feildəki işdən əvvəl icra olunduğunu bildirir.
• – ıb4 şəkilçisi nəqli keçmiş zamanla qrammatik omonimdir.

200. Hansı cümlələrdə feili bağlama vardır?1. Oxuyanlar tələbədirlər. 2.Bütün bunları düşündükçə ağlı dumanlanırdı.3.Qurbətdə xan olunca, vətənində dilən gəz.4.Közərən ocaq gözətçinin yaxında olduğunu xəbər verirdi.

√ 2.3
• 1.2
• 2.4
• 1.4
• 3.4

201. Hansı cümlələrdə feili sifət isimləşmişdir?1. Çoxlu görulәsi işlərimiz var.2.Keçmişi olmayanın gələcəyi də olmaz.3.Bu bayramda bütün küsülülər barışır.4.Mərasimə gələnlər qardaşının yaxın dostları idi.5.Hamı onun təzə yazdığı kitabı tərifləyirdi.6.Bildiklərimin hamısını ona ətraflı danışdım.

• 2,3,6
• 1,4,5
√ 2,4,6
• 1,3,5
• 1,2,5

202. Hansı cümlənin xəbəri feili sifətlə ifadə olunmayıb?

√ O, bu işdən əl çəkməlidir.
• Qarpızların bir qismi yetişməmiş idi.
• Aldığım alma yeməli idi.
• Bu film olduqca gülməlidir.
• Çay soyuyub, içməlidir.

203. Feillərdən birini həm şühudi keçmiş zaman, həm də xəbər şəklinin hekayəsi kimi izah etmək mümkündür:

√ bitirdi
• silirdi
• aparardı
• qudurdu
• yandırdı

204. Uyğunluğu gözləməklə məntiqi ardıcıllığı tamamlayın:Dünənki, bildirki,.....

• həminki
• bizimki
√ sabahkı
• sizinki
• əlindəki

205. Aşağıdakılardan biri nitq hissələrinə görə digərlərindən fərqlənir:

• cahil
• zorbaca
√ gəlincə
• balaca
• ürəyiaçıq

206. Verilən nümunələrdə feilin hansı qrammatik məna növü işlənməmişdir? Döymək,döyüşmək,döyünmək,döyülmək,döydürmək

- məchul
- icbar
- √ şəxssiz
- qayıdış
- məlum

**207.** Hansı cümlənin xəbəri şəxssiz növ feillə ifadə olunmuşdur?

- √ İndi belə şeylərə çox əhəmiyyət verilir.
- Məktub sahibinə çatdırıldı.
- Arif də yaxşı oxuyurdu.
- Düşmən geri çəkildi.
- Qapı taybatay açıldı.

**208.** Hansı feillər qarşılıq – birgəlik növdə deyil? 1.görüşmək, 2.çalışmaq, 3.qırışmaq,4.gülüşmək,5.alışmaq,6.mələşmək,7.küsüşmək

- √ 2,3,5
- 1,7
- 4,5,7
- 1,5
- 3,6

**209.** Hansı cümlələrdə məchul feil işlənib?1.Burada keçən il yonca əkilmişdi.2.Ümumi iclasın qərarı bizə oxundu.3.Bağımızdakı güllər təzə açılmışdı.4.Düşmənin işğal etdiyi torpaqlar yenidən geri alındı.5.Duman dağlardan çəkildi.

- √ 1,2,4
- 3.5
- 1.5
- 2.3
- 3,4,5

**210.** Məntiqi ardıcıllığı tamamlayın....Qarışmaq, danışmaq....

- √ barışmaq
- görüşmək
- çəkişmək
- vuruşmaq
- yazışmaq

**211.** Feilin hansı təsriflənən şəkilləri görünüşcə birinci şəxsin cəmində eyni olur?1. xəbər şəkli,2.arzu şəkli,3.vacib şəkli,4.əmr şəkli,5.lazım çəkli

- √ 2.4
- 1.4
- 2.3
- 4.5
- 3.5

**212.** Mətndə feilin hansı şəkilləri işlənmişdir? İşdə sənə nə deyiblər, deyiblər, Evə qəldin danış bir az, gül bir az (N.Həsənzadə)

- √ xəbər və əmr
- xəbər, arzu, şərt
- əmr, arzu, xəbər
- vacib və xəbər
- şərt və lazım

**213.** Üçünçü şəxsin təkində şəxs şəkilçisi qəbul etməyən feil zamanlarını müəyyənləşdirin:I.nəqli keçmiş zaman,II.şühudi keçmiş zaman,III.indiki zaman,IV.qəti gələcək zaman ,V.qeyri – qəti gələcək zaman

- III,IV,V
- I,IV,V
- √ II.III,V
- II,V
- I,IV

**214.** Numerativ sözlər hansı cümlədə işlənib?

- Dəvə bir xəyal edər, sarvan iki.
- İki qılınc bir qına sığmaz
- √ İgid bir qaşıq qandan qorxmaz.
- Toyugun qıçı birdir ki, bir.
- Hər gecənin bir gündüzü var.

**215.** Hansı xüsusiyyət feilin təsriflənməyən formalarının üçünə də aiddir?

- √ İki nitq hissəsinin əlamətlərini daşıyırlar.
- Hər üçü hallana bilir və mənsubiyyətə görə dəyişir.
- Hər üçü cümlənin baş üzvləri vəzifəsində işlənə bilir.
- Hər üçü zaman anlayışı ifadə edir.
- Cümlənin xəbəri vəzifəsində işlənə bilirlər.

**216.** Hansı cümlələrdə məsdər həm mənsubiyyət, həm hal şəlilçisi qəbul etmişdir?1.Ora getməkdən yorulmuşam.2.İşləməyindən belə görünür ki, zəhmətkeş adamdır.3.Belə gözəl yazmağı kimdən öyrənmisən? 4.Oxumağına söz ola bilməz.5.Sizin bu barədə susmağınız mənə təəccüblü gəlir.

- √ 2.4
- 3.4
- 2.5
- 3.5
- 1.2

**217.** Aşağıdakı cümlələrdə əvəzliklərdən hansı feli əvəz etmişdir?

- Mən vətənimi – Azərbaycanı çox sevirəm.
- Belə şirin balanı ,görəsən, sevməyən var?
- Özüm özümdəki qüdrətə heyran qaldım.
- Kim deyir ki, bu ölkədə qonağam mən.
- √ Mən sizə nə etmişəm ki, siz mənə belə baxırsınız?

**218.** Biri məntiqi pozur:

- √ ora
- hər şey
- nə etdi?
- siz
- kimi

**219.** Nümunədə əvəzlik hansı nitq hissəsinin yerində işlənib? Özü də Aynurəni axtarmağa getdi.

- sifət
- bağlayıcı
- zərf
- say
- √ isim

**220.** Defislə yazılan mürəkkəb zərf hansıdır (defislər buraxılmışdır)?

- coşubdaşma
- √ teztez

• həndəvər
• qıpqırmızı
• gileygüzar

**221.** Yer zərflərindən ibarət cərgə hansıdır?

• el-obada, istidə, soyuqda
• bizdə, həyətdə, otaqda
• evdə, işdə, bağda
√ içəridə, yuxarıda, burada
• Bakıda, Gəncədə, Şəkidə

**222.** Həm sifət, həm də zərf kimi işlənə biləcək sözləri seçin:1.qışda , 2.gecə,3.göy,4.iti,5.bu,6.gözəl,7.möhkəm,8.çox,9.yaxşı

√ 4,6,7,9
• 3,5,7
• 4,5,6,9
• 2,4,6,7,9
• 1,3,5,6,8

**223.** Bəndlərdən birində zərf var:

√ Səndən ötəri diqqətlə baxmaq olsun, qalanı mənlikdir.
• İşə gedirəm, oğlum
• Xeyli uşaq var bizim həyətdə.
• Sənsiz yaşayıram neçə zamandır.
• Bu sözləri ona çatdırmalısan.

**224.** Yavaş-yavaş, taybatay, xısın-xısın...

• yalan
• dostcasına
• ağlamaq
√ hissə-hissə
• sakit

**225.** Fikrət Kamilə çəpəki baxdı cümləsində zərfin məna növünü göstərin:

• səbəb
• miqdar
√ tərzi-hərəkət
• zaman
• yer

**226.** Məntiqi ardıcıllığı tamamlayın: Hələ, indi,...

• hərdən
• ara-sıra
• ildə
√ dərhal
• hərdənbir

**227.** Hansı cümlədə yer zərfi işlənmişdir?

√ İrəlidə onu nələr gözlədiyini bilmir.
• Məktəbin həyətində yaman səs-küy vardı.
• Kənddən gəlib.
• Meşədə quşlar cəh-cəh vururdu.
• Lalə Gəncədə yaşayır.

**228.** Hansı cümlədə yer zərfi işlənmişdir?

- √ İrəlidə xeyli adam dayanmışdır.
- Xəstə gün -gündən zəifləyirdi.
- Azərin atası Türkiyədə işləyir.
- Kəşfiyyatçılar meşəni axtardılar.
- Biz axşam qonaqları qarşılayacağıq.

**229.** Zərf olmayan cümlə hansıdır?

- √ Fikrət onun dalınca baxa-baxa qaldı.
- Əvvəl- axır buralardan köçüb gedəcəyəm.
- Qoca asta-asta gəlib kəndə çatdı.
- Oğlan oğrun-oğrun atasına baxırdı.
- Xəstə- xəstə dərsə gəlmisən?

**230.** Biri məntiqi pozur:

- √ dünənki
- geridəki
- yuxarıdakı
- aşağıdakı
- oradakı

**231.** Hansı cərgə defislə yazılan zaman zərflərindən ibarətdir?

- √ səhər-səhər, indi-indi, ara-sıra
- üz-üzə, sağa-sola, dala-qabağa
- az-çox, birə-beş, qabaq-qabağa
- dəstə-dəstə, ara-sıra, ora-bura
- əyri- əyri, yan-yana, qeyri-ixtiyari

**232.** Saydan düzələn zərfləri göstərin:

- ucadan, qəsdən
- şəxsən, dahiyanə
- √ birdən, çoxdan
- hərdən, astadan
- qəfildən, daxilən

**233.** Hava get-gedə saflaşırdı cümləsində feilin təhlilindəki səhvləri göstərin:1. Sifətdən düzələn feldir.2.Təsirli feldir.3.Qarşılıq – birgəlik növdədir.4.– ır indiki zaman şəkilçisidir.5.– dı feil şəkillərinin rəvayətinin əlamətidir.

- √ 2,3,5
- 2,4,5
- 1,3,4
- 1,2,4
- 1,3,5

**234.** Uşaq tək qaldığı üçün sıxılırdı cümləsində təsriflənən feilin morfoloji təhlilindəki səhvləri göstərin:1.Sifətdən düzəlmiş feildir.2.Təsirlidir.3.Qayıdış növdədir.4.Şühudi keçmiş zamandadır. 5.Xəbər şəklinin hekayəsindədir.

- √ 1,2,4
- 2,3,5
- 1,3,5
- 2,4
- 1,3

**235.** Hansı fikir səhvdir?

- – arkən2 şəkilçisi daha çox zaman bildirir.
- – madan 2 vurğusuz şəkilçidir.
- √ – ıb 4 yalnız feili bağlama şəkilçisi kimi işlənir.
- –madan2 şəkilçisi hərəkətin tərzi ilə yanaşı, zamanını da bildirir.
- Bəzi feili bağlama şəkilçilərində sinonimlik vardır.

**236.** Cümlələrin birində feili bağlama işlənməyib:

- O, ətrafa baxa-baxa yola çıxdı.
- Yağış kəsilməyincə mağazadan çıxmadıq.
- Buludlar çəkilər-çəkilməz dağı boz duman bürüdü.
- √ Baba səliqə ilə doğranmış çörəyi boşqaba yığdı.
- Evə yaxınlaşanda nəbzi daha həyəcanla vurmağa başladı.

**237.** Hansı cümlələrdə feili sifətlər isimləşmişdir?1.Əziləni müdafiə etmək nəcib insanların xüsusiyyətidir.2.İncidilən insanlara kömək etməliyik.3.Qaçanı qovmazlar.4.Müdafiə olunan tərəf rahat nəfəs aldı.5.Yıxılanı vurmazlar.6.Calışqan həmişə uğur qazanar.

- √ 1,3,5
- 2,3,6
- 1,4,5
- 1,2,5
- 2,4,6

**238.** Onların belə danışmaqlarına baxmayın cümləsində işlənmiş məsdərdə onun üçün səciyyəvi olmayan hansı cəhət özünü göstərir?

- √ Cəmlənib.
- Hallanıb.
- Yiyəlik halla əlaqəyə girib.
- Üçüncü növ təyini söz birləşməsinin II tərəfi kimi işlənib.
- Mənsubiyyətə görə dəyişib.

**239.** Hansı cümlələrdə həm hal, həm də mənsubiyyət şəkilçisi qəbul etmiş məsdərlər vardır?1.Görüşməyimizdən bir həftə sonra getdi.2.Atam tapşırardı ki, dərsə geçikməyim.3.O, yaxşı oxumağımız üçün heç nəyi əsirgəmirdi.4.Deməyindən belə çıxır ki, heç nədən xəbəri yoxdur.

- 1.3
- 3.4
- √ 1.4
- 1.2
- 2.4

**240.** Hansı cümlədə məsdər mənsubiyyətə görə dəyişmişdir?

- Ərəb əlifbası ilə yazmağı qardaşımdan öyrənmişəm.
- Rəisdən sonra hamı çıxış etmək istəyirdi.
- Uşağın şeir oxumağa çox həvəsi var.
- Açıq havada gəzməyin faydası çoxdur.
- √ Onun bu məclisə gəlməyi çoxlarını sevindirdi.

**241.** Feilin mürəkkəb şəkilləri işlənmiş cümlələri göstərin:1.Sərdar gecə bizdə qaldı.2.Bu səslər içində mənim də öz səsim olmalıdır.3.Qanadı sınmış quş da uçarmış.4.Şair, nə tez qocaldın sən.5.Yenə o bağ olaydı. Yenə yığışaraq siz o bağa köcəydiniz.

- √ 3.5
- 2,4
- 1.4
- 1.5
- 2.3

**242.** Hansı cərgədəki söz feilin sadə şəklində deyil?

- √ alırdınız

- aldım
- almışıq
- alınmalıdır
- alsanız

**243.** Biri nitq feilidir.

- gülümsəmək
- darıxmaq
- mışıldamaq
- √ mızıldamaq
- maraqlanmaq

**244.** Hansı sözdə - ır4 şəkilçisi həm indiki zaman, həm də təsirsiz feili təsirli feilə çevirən şəkilçi kimi çıxış edə bilər?

- biçir
- yeyir
- √ uçur
- alır
- görür

**245.** Bu əlamətlərdən biri feilin məchul və qayıdış növləri üçün ortaq ola bilməz:

- Bu növlərə düşən feillər təsirsiz olur.
- Bu növlərə düşən feillər təsirsiz olur.
- √ Hər ikisində subyekt itir, obyekt subyekti əvəz edir.
- Hər ikisi təsirli feillərdən düzəlir.
- Hər ikisi – ın4 ,-ıl4 şəkilçilərinin köməyi ilə düzəlir.

**246.** Uşaq yuyundu. Anası ilə görüşdü. Xoş, məzəli sözləri ilə onu güldürdü .Verilmiş cümlələrdə feilin hansı məna növlərinə aid nümunələr vardır?

- √ qayıdış, qarşılıq-birgəlik, məlum
- qayıdış, şəxssiz , icbar.
- məlum, məchul, icbar
- məlum, qarşılıq-birgəlik, icbar
- məlum, qayıdış, icbar

**247.** Hansı cümlədə şəxssiz feil işlənib?

- Qapı qəfildən döyüldü .
- √ Belə şeylərə indi fikir verilmir.
- Plan vaxtında yerinə yetirildi.
- O, plana vaxtında əməl etdi.
- Rəqib rinqin o biri küncünə çəkildi.

**248.** Aşağıdakı cümlələrin hansında feil qarşılıq- birgəlik növdədir?1. Rəfiqələr bir-birini qucaqladılar.2.Rəfiqələr qucaqlaşdılar.3.Rəfiqələr qucaqlaşmadılar.

- √ 2 və 3
- 1 və 2
- 3
- 2
- Hamısında

**249.** Bu əlamətlərin biri feilin məchul və şəxssiz növləri üçün ortaq ola bilməz:

- √ Təsirli feildən düzəlirlər.
- Şəxssiz feillər həmişə, məchul feillər isə əksərən üçüncü şəxsin təkində işlənir.
- Hər ikisinin subyekti itir.

- Təsirsiz olurlar.
- əsasən, – ıl4 şəkilçisi ilə düzəlirlər.

**250.** Aşağıdakı şəkilçilərdən biri feilin üç qrammatik məna növünün yaranmasında iştirak edir:

√ – ıl
- –ır
- –malı
- –dır
- – ış

**251.** Hansı cümlənin xəbəri təsirli feildən düzəlib təsirli olaraq qalan qayıdış növ feillə ifadə olunub?

- Gül açıldı.
- Yağış kəsildi.

√ Əhməd geyindi.
- Əli darandı.
- Duman çəkildi.

**252.** Hansı cümlədəki feil icbar növdə deyil?

- Döşəməni sildirdim
- Qapını açdırdım.

√ Otağı qızdırdım.
- Məktubu yazdırdım.
- Həyətə su çəkdirdim.

**253.** – ma, (-mə) inkar şəkilçisinə aid edilmiş fikirlərdən biri yanlışdır:

- İndiki və qeyri-qəti gələcək zamanlarda işlənərkən öz saitini itirir.
- Feilin lazım şəkli ilə işlənə bilmir.

√ Feillərdən isim əmələ gətirə bilmir.
- Yalnız feillərlə işlənir.
- Vurğusuzdur.

**254.** Məntiqi ardıcıllığı tamamlayın....Açar, kəsər, çapar,....

√ dəyər
- hədər
- apar
- gələr
- qaçar

**255.** Biri icbar növdədir:

√ yoldur
- sındır
- çatdır
- baxdır
- qaldır

**256.** Hansılar sifətdən düzəlmiş feildir?

- parlamaq, pörtləmək
- saçlamaq, qaralamaq

√ harınlamaq , həyasızlaşmaq
- ağlamaq, köçürmək
- qalınlaşdırmaq, qızışdırmaq

**257.** Cümlələrin birində nida işlənməmişdir:

- Ox, bizi aldatdılar!
- Vay-vay, deyəsən, bəşər deyil bu!
- √ Ahın dağlara, bala.
- Ay haray, qoymayın, apardılar!
- Ah, necə kef çəkməli əyyam idi

**258.** Biri modal söz deyil:

- beləliklə
- sanki
- √ habelə
- əvvəla
- nəhayət

**259.** Qar yağır nümunəsinə artırılan hansı nida cümləyə qorxu emosiyası artıracaqdır?

- aha
- bıy
- ay can- ay can
- √ vay- vay
- heyf

**260.** Qoşma hansı cümlədədir?

- √ Evdən çıxanda anam arxamca su atardı.
- Uşaq evdə tək qalmışdı
- Uşaqlardan kimisi dərs oxuyur, kimisi də həyətdə gəzişirdi.
- Sonra mən onu evlərinə ötürdüm.
- Tahirlə Sabit bizim köhnə qonşularımızdır.

**261.** Məntiqi uyğunluğu gözləməklə bağlayıcılardan ibarət cərgəni tamamlayın:Ona görə ki, onun üçün ki,....

- √ çünki
- indi ki
- bir halda ki
- madam ki
- hərçənd ki

**262.** Modal sözlərə aid səhv fikri müəyyənləşdirin:

- √ Cümlənin ancaq əvvəlində və sonunda işlənə bilər.
- Bəziləri əsas nitq hissələri ilə ortaq sözlərdir.
- Quruluşca iki növü var.
- Danışanın ifadə etdiyi fikrə münasibət bildirən sözlərə deyilir.
- Cümlə üzvlərindən vergüllə ayrılır.

**263.** Hansında ədat işlənməmişdir?

- √ Gedək, gözlərinlə gör.
- Gəl bu daşı ətəyindən tök.
- Adamı belə əzişdirərlər bax.
- Bu işi təkcə sən bacararsan.
- Gör bir neylədin!

**264.** –mı4 ədatı hansı feillərə qoşulmur?

- √ 2-ci şəxsdə olan əmr şəklinə
- məsdərlərə
- feili bağlamalara

- şərt şəklində olan feillərə
- vacib şəklində olan feillərə

**265.** Ancaq qrammatik mənası olan sözü müəyyənləşdirin:

√ lap
- kimi
- elə
- tək
- doğru

**266.** 1991-ci ildən sonra Azərbaycanda çox yeniliklər baş vermişdir cümləsindəki qoşmanı onun sinonimi kimi hansı sözlə əvəz etmək olar?

√ bəri
- qabaq
- başqa
- qeyri
- əvvəl

**267.** — Söz-cümlə nə ilə ifadə olunmuşdur? — Bu barədə fikrin nədir, o,doğrudanmı, bu işi bacarar?Deyilənə görə, bəli.

√ modal söz və təsdiq ədatı ilə
- modal sözlə
- təsdiq ədatı ilə
- nida və modal sözlə
- nida və təsdiq ədatı ilə

**268.** Şeir parçasında köməkçi nitq hissələrindən hansılar işlənmişdir? Bəlkə,onun da oğlu qanlı döyüşlərdədir,kim bilir, o, bəlkə də, mənimlə bir dərddədir

√ modal söz, bağlayıcı
- bağlayıcı, qoşma
- qoşma, nida
- ədat, qoşma
- ədat, nida

**269.** Nümunələrdən birində ədat və qoşma işlənmişdir:

√ Bax sənin üçün nə qədər gül dərmişəm.
- Nənəsi Nərmin üçün qoğal bişirmişdi.
- Düzü, o zaman Dolan təpələri əsl döyüş meydanına çevrilmişdi.
- Uzun illərdən sonra axtardığımı tapdım.
- Todan kəndi də Goranboydadır.

**270.** Barı evə məktub yaz cümləsində ədatın hansı növü işlənmişdir?

√ arzu
- məhdudlaşdırıcı
- əmr
- qüvvətləndirici
- dəqiqləşdirici

**271.** Hər kəs öz nəfsini tanısa, Allahını da tanıyar (İmam Əli) cümləsində hansı köməkçi nitq hissəsi işlənmişdir?

√ bağlayıcı
- qoşma
- modal söz
- nida
- ədat

**272.** Verilənlərdən hansılar həm şəkilçi, həm bağlayıcı, həm də ədat ola bilər? 1) lə,2) ki, 3) ya,4) da,5) gah, 6) həm , 7) hətta

- √ 2, 4
- 4, 5, 6
- 1, 4, 6, 7
- 1, 6, 7
- 2, 3, 4

**273.** Zərf və ədat kimi işlənən sözləri göstərin:

- √ Onun düşmənindən daha çox dostu var.
- İmtahanda uğur qazanmaq üçün daha çox oxumaq lazımdır.
- Onlar daha birlikdə işləmir.
- Havadakı rütubət daha da çoxalmışdı.
- Biz bu gün daha çox çalışdıq

**274.** Hansı cümlədə şərt bağlayıcısı işlənib?

- √ Bir halda ki, evlənməyəcəkdin, niyə onun hissləri ilə oynadın?
- O, uşaqları hələ də axtarırdı, halbuki onlar çoxdan getmişdilər.
- Mənə elə gəlir ki, sən bunun üçün yaranmısan.
- Toyda nəinki qohumlar, hətta uzaqdan gələn yoldaşlar da iştirak edirdilər.
- Elə ki, anam gəldi, onun qabağına qaçdıq.

**275.** Hansı cümlədə - la2 zərf düzəldən şəkilçidir?

- √ Qoca nəfəsini güclə alırdı.
- Əli ilə vacib işim var
- Onunla açıq danışmaq lazımdır
- Atamla mən bu işə çoxdan başlamışıq.
- Akiflə Fərid qardaşdır.

**276.** Düzəltmə tərzi-hərəkət zərflərini göstərin:

- √ sürətlə, beləcə
- salamat, irəli
- cəld, sonra
- sərin, həyəcanlı
- qələmlə, əvvəlcə

**277.** Miqdar zərfi hansı cümlədədir?

- √ Ağacın qurdu özündən olmasaydı, çox yaşayardı.
- Təkdənbir çəkic səsi eşidilirdi
- Aclıq bir il gedər, minnət min il.
- Az ilə çoxun oyunu olmaz.
- Adam min acını unudar bir şirinin xatirinə.

**278.** Sadə zaman zərfini seçin:

- xeyli
- hərdən
- √ bildir
- asta
- tamamilə

**279.** Zərf kimi verilənlərdən biri səhvdir:

- √ hara

- üzbəüz
- arxa
- yuxarı
- əvvəl

**280.** Mürəkkəb zərfləri seçin:

√ yanbayan, üzbəüz, günbəgün
- acgöz, üzüyuxarı, ürəyiaçıq
- qaçaqaç, vurhavur, qovhaqov
- sakit-sakit, kələ-kötür, gec-tez
- növbənöv, rəngarəng, cürbəcür

**281.** Aşağıdakı cümlələrin birində zərf işlənmişdir:

- Mühəndis qız iş yerinə gələndə saat iki idi.
- İnsan! O, müqəddəs bir kainatdır.

√ Mən orada olmasam, çətin olacaq.
- Günəş şəfəqlərlə bəzəyir yeri.
- Açılmış səhərin ala gözləri.

**282.** Zərf düzəldən şəkilçi hansıdır?

- –ın 4
- –kı 4
- – madan 2
- – ıq4

√ – casına 2

**283.** Düzəltmə zərflər cərgəsini göstərin:

- dünən, bayaq
- aşağı, gec-tez

√ şairanə, çəpəki
- bərkdən, irəli
- ucadan, indi

**284.** Tərzi-hərəkət zərfini tapın:

√ sürətlə, igidcəsinə
- yavaşça, soyuqdan
- istidən, hünərlə
- az, xeyli
- irəli, aşağı

**285.** Həmişə dərsə hazır olmaq lazımdır cümləsində həmişə sözü hansı nitq hissəsidir?

√ zərf
- feil
- say
- sifət
- isim

**286.** Birə-beş, azdan-çoxdan sözləri zərfin hansı məna növündədir?

- yer
- səbəb
- tərzi-hərəkət

√ miqdar
- zaman

**287.** Hansı cümlədə işarələnmış söz zərfdir?

√ Düz danışmırsan.
• Əsən küləklərdən xəbərimiz yox.
• İti bıçaq əlimizi kəsdi.
• Onda böyük bir enerji var.
• Düz söz üz qızardır.

**288.** Hansı cümlədə zərf var?

√ Sən bu işi həvəslə görmüsən.
• Bügünkü söz sabahkı sözün körpüsüdür.
• Bilməsən, bir biləndən soruş.
• Yalnız sən mənə kömək edə bilərsən.
• Builki sərçə bildirkinə cik-cik öyrədir.

**289.** Zərf olan cümləni tapıb göstərin:

√ Cavad hiyləgərcəsinə gülümsəyirdi
• Onun hörməti artmışdı.
• Gözlərini qırpmadan bir nöqtəyə baxırdı.
• Qırmızı-qırmızı almalar adama gəl-gəl deyirdi.
• Müəllim yaxşı tələbələri qiymətləndirdi.

**290.** Əvvəl sözü hansı cümlədə zərfdir?

√ Əvvəl sən, sonra mən gələrəm.
• Səndən əvvəl gəlmişəm.
• Sözünü deməmişdən əvvəl gedərsən.
• Kimdən əvvəl gəlmisən?
• Qonşu məndən əvvəl gəldi.

**291.** Tərzi- hərəkət zərflərinin sayını müəyyən edin:Ehmalca, aybaay, təəccüblə, hiyləgərcəsinə, uzaq, irəli, vaxtilə, axşamtərəfi, ötəri, əvvəl, xeyli, sürətlə.

• 3
√ 5
• 6
• 7
• 8

**292.** Zərfdən düzələn sözü göstərin:

√ tezdən
• dəlicəsinə
• anbaan
• dostyana
• yuxarı

**293.** Bəndlərdən birində zərf yoxdur:

√ Yamanca qoçaq idi.
• Astaca gülümsündü.
• Yamanca qorxutdun məni.
• Ehmalca vurdum.
• Türkcə danışmayın.

**294.** Miqdar zərfi olan cümləni göstərin:

√ Az danışmaq lazımdır.
- Xeyli adam gəlmişdir.
- Mən bunu belə də düşünürdüm.
- Az adam tapılar ki, bu işi bilsin.
- Dünən şiddətli külək əsirdi

**295.** Hansı düzəltmə söz zərfdən yaranıb?

√ geriləmək
- zarafatyana
- cəpəki
- hamarlamaq
- yerləşmək

**296.** Verilmiş sözlərdən biri zərf deyil:

√ şəhərdə
- birdən
- xəstə-xəstə
- daxilən
- ucadan

**297.** Hansı suallar zərfin deyil?

√ hansı?, nəyə?, nə üçün?
- necə? , nə cür? , nə tərzdə?
- nə vaxt?, nə zaman?, haçan?
- nə qədər?, nə dərəcədə?
- haraya?, hara?, haradan?

**298.** Miqdar zərfi olan cümləni göstərin:

√ Həyətdə xeyli işləmişdim.
- Çoxlu meyvə aldım.
- Meydana yüzlərlə adam toplaşmışdı.
- Deyilənlər barədə çox fikirlər söyləndi.
- Biz xeyli ağac əkdik.

**299.** Uşaqlar bu gün xeyli çalışdılar cümləsində zərfin hansı məna növləri işlənmişdir?

√ zaman, miqdar
- tərzi-hərəkət, yer
- yer, miqdar
- zaman, yer
- zaman, tərzi-hərəkət

**300.** Hansı sıra isim və zərf kimi işlənən sözlərdən ibarətdir?

√ gecə, gündüz, sabah, axşam
- qabaq, sonra,əvvəl, bəri
- xeyli, çox, bir az, bir qədər
- doğru, tərəf, tək, səhər
- yaxşı, pis, aydın, işıqlı

**301.** Bu sözlərdən biri yer zərfi deyil:

√ çinarlıqda
- ortalıqda
- bəri
- aralıqda

- üzüaşağı

**302.** Zərflərdən biri məna növünə görə digərlərindən fərqlənir:

√ yuxarı
- cəld
- gözucu
- çəpəki
- asta-asta

**303.** Biri zərfdir:

√ tez
- necə
- bayram
- eldə
- səndə

**304.** Verilmiş sözlərdən hansı zərf deyil?

- üzbəüz
- aybaay
- yanbayan
- ilbəil

√ qaçaqac

**305.** Zərf kimi verilənlərdən biri səhvdir:

√ kənddən
- içəri
- ora
- irəli
- aşağı

**306.** Düzəltmə zərf hansıdır?

√ həvəslə
- xalamgil
- maraqlan
- birlik
- qurğu

**307.** İndi, bayaq sözləri zərfin hansı məna növünə aiddir?

√ zaman
- yer
- səbəb
- kəmiyyət
- tərzi-hərəkət

**308.** Zərf düzəldən şəkilçiləri göstərin: 1.– la2 ,2.–ca 2 3.–mış4 ,4.–dan 2 ,5.–acaq2 ,6.-ən,7.-araq2

√ 1,2,4,6
- 3,4,6
- 3,4,6,7
- 1,2,6
- 1,2,5

**309.** Bunlardan yalnız birində uzlaşma əlaqəsi vardır:

- √ Həyat davam edir.
- dağdan enən
- aydın səma
- Dünən gəlmişik.
- Təcili getməlisniz.

**310.** Uzlaşma əlaqəsi hansı nümunədədir?

- bizim həyət
- təcili danışmaq
- √ Ev tikilib.
- doğma torpaq
- siz oxuyanda

**311.** İsmin hansı halı uzlaşma əlaqəsində əsas, yanaşma əlaqəsində asılı tərəf ola bilir?

- təsirlik
- √ adlıq
- çıxışlıq
- yiyəlik
- yönlük

**312.** Yanaşma əlaqəli aşağıdakı birləşmələrin birində isim tabe tərəf kimi işlənib:

- şəhərdəki məktəb
- √ mühəndis Kərimli
- həyati mənafe
- buludlu hava
- həftəlik plan

**313.** Qardaşı savadlı mütəxəssisdir cümləsində hansı sintaktik əlaqələr var?1.idarə,2.yanaşma,3.uzlaşma,4.tabesizlik

- √ 2.3
- 1.4
- 1.3
- 3.4
- 2.4

**314.** Hansı II növ söz birləşməsini III növə keçirmək olmur?

- dağ havası
- √ maşın bazarı
- bulaq suyu
- pəncərə şüşəsi
- meşə gözətçisi

**315.** Aşağıdakı söz birləşmələrindən hansında tərəflərin yerini dəyişsək, məzmununa xələl gəlməz?

- Qız qalası
- çox insan
- kitab oxumaq
- beş dəftər
- √ mənim sevgilim

**316.** Biri feili birləşmədir:

- hiss etmək
- maraqlı görüş
- √ bağa köçəndə
- silahlı adam

- dilə gəlmək

**317.** I növ təyini söz birləşməsinin asılı tərəfi hansı cümlə üzvü olur?

√ təyin
- tamamlıq
- xəbər
- zərflik
- mübtəda

**318.** İdarə əlaqəsi hansı nümunədədir?

√ cəbhədən qayıtmaq
- çalınan saz
- ciddi münasibət
- beşinci sıra
- yaşıl yarpaq

**319.** İsim+fel sxeminə uyğun gələn söz birləşməsini göstərin:

√ qatar gələndə, dərslərini oxuyan
- yatan kişi,dəri başmaq
- igidlər gülərək, yaralılara baxaraq
- onun oxumağı, sənin dediyin
- qapıya qaçıb, beş uşaq

**320.** Gələn qız ismi birləşməsinin tərəfləri arasında hansı sintaktik əlaqə var?

√ yanaşma
- yanaşma , uzlaşma
- idarə, yanaşma
- idarə
- uzlaşma

**321.** Hansı sözlər arasında idarə əlaqəsi vardır?

- bu kitab
- tez getmək
- hərdən görünmək
- həvəslə oynamaq

√ sənədləri qaytarmaq

**322.** Yanaşma əlaqəli nümunələr hansı variantdadır?

- dodağında təbəssüm
- dərsə gedəndə, yaxşı kitab

√ sevimli diyar, gözəl Şuşa
- həyətin qapısı, kitab üzü
- körpələr evi

**323.** I növ təyini söz birləşmələri hansı sintaktik əlaqə ilə yaranır?

√ yanaşma
- həm idarə, həm yanaşma
- idarə
- uzlaşma
- tabesizlik

**324.** Uzlaşma əlaqəsi hansı bənddədir?

- √ Siz oxuyun
- Hər adam
- Təcili həll etmək
- Gözəl vətən
- Evə gedəndə

**325.** Tabesizlik əlaqəsi hansı cümlə üzvləri arasında olur?

- √ Həmcins üzvlər arasında
- Tamamlıqla xəbər arasında
- Təyinlə mübtəda arasında
- Təyinlə tamamlıq arasında
- Mübtəda ilə xəbər arasında

**326.** Hansı qoşmanın tələffüzü yazılışından fərqlidir?

- kimi
- başqa
- tərəf
- ötrü
- √ aid

**327.** Bağlayıcı işlənmiş cümləni tapın:

- √ Bir vaxt deyərdim ki, ölüm uzaqdır.
- Bizimki bura qədər imiş.
- Uşaqlar üşümür ki?
- Bu ki onun uşaqlıq şəklidir.
- Bazardakı bahalıqdan şikayət edirdi.

**328.** Ay aman, deyəsən, sən də onlara tərəf çıxırsan, sən nə vaxt məni anlayacaqsan? cümləsində köməkçi nitq hissələrinin ardıcıllığını göstərin:

- nida, modal söz, ədat, ədat
- nida, bağlayıcı, qoşma, modal söz
- nida, modal söz, ədat, qoşma
- nida, bağlayıcı, bağlayıcı, modal söz
- √ nida, modal söz, bağlayıcı, qoşma

**329.** Ya elm öyrən, ya elm öyrədənləri dinlə, ya da elm əhlini sev cümləsində tabesizlik bağlayıcısının növünü göstərin :

- √ bölüşdürmə
- qarşılaşdırma
- aydınlaşdırma
- iştirak
- birləşdirmə

**330.** Elə sözü nə zaman suala cavab vermir?

- √ ədat kimi işləndikdə
- feil kimi işləndikdə
- sifəti əvəz etdikdə
- işarə əvəzliyi olduqda
- zərfi əvəz etdikdə

**331.** Biri köməkçi nitq hissələrinin sintaktik xüsusiyyətinə aid deyil:

- √ Müstəqil cümlə üzvü olur.
- Cümlə daxilində fikrə münasibət bildirir.
- Müəyyən qrammatik məna bildirir.

- Cümlənin təsir gücünü artırır.
- Həmcins üzvlər arasında bağlılıq yaradır.

**332.** Köməkçi nitq hissələrindən dilçiliyin hansı bölməsində bəhs edilir?

√ morfologiya
- sintaksis
- üslubiyyat
- fonetika
- leksikologiya

**333.** Köməkçi nitq hissələrindən hansının orfoqrafiyasında defis işarəsindən də istifadə edilir?

√ nida
- bağlayıcı
- modal sözlər
- ədat
- qoşma

**334.** Qoşmadır, şəkilçi formasında deyil, ancaq sözlərə bitişik yazılır:

√ tək
- –la,lə
- can2
- -ca,cə
- –dək

**335.** Köməkçi nitq hissələrindən şəkilçi formasında da olanlar hansı sıradadır?

√ qoşma, bağlayıcı, ədat
- bağlayıcı, modal sözlər, qoşma
- modal sözlər, nida, qoşma
- nida
- qoşma, ədat, nida

**336.** Durğu işarəsi qoyulmasa, hansı cümlədəki kimi sözü həm qoşma, həm də sual əvəzliyi kimi başa düşülə bilər?

√ Əli kimi axtarırdı
- Kimi danışır kimi susur
- Sən kimi soruşursan
- Kimi gördün
- Dostların kimi danışma

**337.** Aşağıdakılardan biri modal söz kimi işlənə bilir:

√ görünür
- görün
- gəlin
- gəlsənə
- gör

**338.** Afərin nidası hansı cümlədə tərif mənasında işlənməmişdir?

√ Afərin! Adam da yoldaşını aldadar?!
- Afərin! Halal olsun sənə ananın südü!
- Afərin! Ozünü itirmədin.
- Afərin, oğul! Biz səninlə fəxr edirik.
- Afərin! Yaxşı cavab verdin!

**339.** Bağlayıcılardan birinin yazılışı səhvdir:

- √ hər gah
- belə ki
- halbuki
- nəinki
- indi ki

**340.** Mən dərsdən sonra evədək piyada getdim cümləsindəki qoşmalar hansı mənaları bildirir?

- √ zaman, məsafə
- zaman, bənzətmə
- fərqlənmə, birgəlik
- istiqamət, zaman
- səbəb-məqsəd, bənzətmə

**341.** Modal sözlərdən biri ehtimal və şübhə bildirir:

- √ görünür
- doğrudan da
- şübhəsiz
- məncə
- deməli

**342.** Qoşma haqqındakı fikirlərdən hansı səhvdir?

- √ İsmin bütün hallarında olan sözlərə qoşulur.
- Təkhecalı qoşmalar sözlərə bitişik, ikihecalılar isə ayrı yazılır.
- Qoşulduğu sözlə birlikdə müxtəlif məna çalarları ifadə edir.
- Qoşulduğu sözlə birlikdə cümlə üzvü olur.
- Müstəqil suala cavab ola bilmir.

**343.** Qoşma hansı cümlədədir?

- √ Anar həyətdə topla oynayır.
- Səhər tezdən məktəbdə kimi axtarırsan?
- Bu sözün başqa mənaları da var.
- Atamla qonşumuz kəndə getdilər.
- Uşaq hər şeyə diqqətlə baxırdı.

**344.** İstər, istərsə də bağlayıcısının növünü göstərin:

- √ bölüşdürmə
- iştirak
- qarşılaşdırma
- aydınlaşdırma
- inkarlıq

**345.** Qüvvətləndirici ədatın işləndiyi cümlə hansıdır?

- Gəl ha
- Ayrılarmı könül candan?
- √ Sən ki bunu bilirdin.
- Yəni sən bunu bilirsən?
- Təkcə sənə güvənirəm.

**346.** Hansı ədatlardan sonra vergül qoyulmalıdır?

- ki
- məhz
- qoy

- ha
- √ bəli

**347.** Güzəşt bağlayıçısı işlənib:1.yəni,2.indi ki,3.buna görə də,4.hərcənd,5.hərcənd ki,6.hərgah

- √ 4.5
- 4,5,6
- 1,3,5,6
- 1,2,5
- 1,4,5

**348.** Qoşmalar ismin hansı halında işlənmirlər? 1.yiyəlik, 2.yönlük, 3.çıxışlıq, 4.təsirlik,5.yerlik

- √ 4,5
- 1,2,3
- 2,4,5
- 2,3,5
- 2.3

**349.** Həm qoşma, həm zərf kimi işlənən sözləri seçin:

- sabah, axşam
- görə, bəri
- sonra, və
- √ sonra, əvvəl
- indi, dünən

**350.** Feili xəbərli cümləni göstərin:

- Buranın gözəl təbiəti var.
- √ Küçədə toplaşan adamların üzündə bayram əhval – ruhiyyəsi duyulurdu.
- Tamaşa gülməli idi.
- Güllər ətirli və təravətlidir.
- Amalımız Vətən yolunda çarpışmaqdır.

**351.** İsmi xəbərli cümləni göstərin:

- √ Gələn Fəridə idi.
- Mətni diqqətlə köçürdü.
- İdmançılar olimpiadaya hazırlaşır.
- Güclü külək ağacları yerə yıxmışdı.
- O, mənə diqqətlə qulaq asırdı.

**352.** Mürəkkəb xəbərli cümləni göstərin:

- √ Gənclər bizim gələcəyimizdir.
- Mən Akifə minnətdaram.
- Babam ağacın altında oturub çay içirdi.
- Uşaqlar səyahətdən doymurdular.
- Bir zamanlar insanlar qul halında yaşamışlar.

**353.** Hansı cümlədə xəbər kəmiyyətə görə mübtəda ilə uzlaşmamışdır?

- Siz hər gün imtahana hazırlaşırsınız.
- Onlar hər gün imtahana hazırlaşırlar.
- √ Onlar hər gün imtahana hazırlaşır.
- O hər gün imtahana hazırlaşır.
- Biz hər gün imtahana hazırlaşırıq.

**354.** Cümlənin xəbəri nə ilə ifadə olunmuşdur? Bizim borcumuz tariximizi dərindən öyrənməkdir.

- √ məsdər tərkibi ilə
- feili sifətlə
- əvəzliklə
- feillə
- isimlə

**355.** Xəbər haqqında fikirlərdən biri səhvdir:

- √ Cümlənin heç bir üzvünə tabe olmayan ən müstəqil üzvdür.
- Həm nitq hissələri, həm də söz birləşmələri ilə ifadə olunur.
- Quruluşca sadə və mürəkkəb olur.
- Mübtədaya aid hərəkəti və ya hökmü bildirən baş üzvdür.
- İfadə vasitəsinə görə iki cürdür: feili xəbər, ismi xəbər

**356.** Cümlələrdən birində mübtəda səhv göstərilib:

- Kitabı dünəndən məktəbdə qalıb.
- Taleyim solmayan aydın səhərdir.
- Günəşin istiliyi əsgərlərin işini bir az da çətinləşdirmişdir.
- √ Məktəbin həyətində şagirdlər ağac əkdilər.
- Aşağıdakı dərədə daxma və ağaclar görünürdü

**357.** Atın yüyəni Tahirin əlində idi cümləsinin mübtədası nə ilə ifadə olunmuşdur?

- √ III növ təyini söz birləşməsi ilə
- məsdər tərkibi ilə
- feili sifət tərkibi ilə
- I növ təyini söz birləşməsi ilə
- II növ təyini söz birləşməsi ilə

**358.** Cümlədəki feili birləşmələrdən birinin əsas tərəfi tərkibi feillə ifadə olunmuşdur:

- √ Dərgahın qapısı açıq olanda köpəyin yuxusu gələr.
- Getdim dərdli yanına, o, məndən narın ağladı.
- Dərdini gizlədən dərmanını tapmaz
- Dəyirman öz işində, çax-çax baş ağrıdar.
- Gecəni yatmaq mənim üçün bir problemə çevrilib.

**359.** Asılı tərəfi düzəltmə sözlə ifadə olunan ismi birləşməni göstərin:

- √ gözəllik vurğunu
- dərin quyu
- sərin hava
- yaxşılıq itirən
- qoyun sürüsü

**360.** Əsas tərəfi feili bağlama ilə ifadə olunan söz birləşməsini göstərin:

- √ təbiətə baxdıqca
- həyatdan küskün adam
- dərindən düşündüyüm
- insana inanan
- gələcəyi görmək

**361.** Hansı ismi birləşmədir?

- onun kimi
- evə qayıdanda
- √ qızıldan kəmər

- sənin haqqında
- sürətlə qaçan

**362.** Ananın öyüdü söz birləşməsində tərəflər arasında hansı əlaqə vardır?

√ uzlaşma və idarə
- idarə
- idarə, yanaşma
- uzlaşma
- uzlaşma, yanaşma

**363.** Verilmiş xüsusiyyətlərdən hansı II növ təyini söz birləşmələrinə aid deyildir?

√ Tərəfləri şəxs əvəzlikləri ilə də ifadə oluna bilir.
- Tərəfləri eyni zamanda cəmlənə bilmir.
- Tərəfləri arasında uzlaşma əlaqəsi özünü göstərir.
- Qeyri-müəyyənlik ifadə edir.
- Tərəfləri arasına heç bir söz daxil ola bilmir

**364.** Hansı cümlədə feili sifət tərkibi işlənmişdir?

- Bir neçə gündən sonra hamı məktəbin həyətinə toplaşdı.
- Bunlar dərslərinə həmişə ciddi hazırlaşırlar
√ Dərin xəyala dalan Səbinə sanki onu heç eşitmirdi.
- Gələn ərbabın adamları idi
- Günçıxan tərəfdə qara buludlar günün qabağını kəsmişdir.

**365.** Asılı tərəfi isimlə ifadə olunmuş I növ təyini söz birləşməsini tapın:

- onuncu sinif
√ taxta qapı
- həmin adam
- şirin meyvə
- oyanmış torpaq

**366.** Asılı tərəfi düzəltmə sifətlə ifadə olunmuş I növ təyini söz birləşməsi hansıdır?

√ qaçaq əsgər
- uzaq ölkə
- oyaq keşikçi
- qoçaq uşaq
- yumşaq parça

**367.** Tabe tərəfi feili sifət olan I növ təyini söz birləşmələrindən ibarət cərgəni hansıdır?

√ oxuduğum kitab, gecikdirilmiş cavab, görüləcək iş
- yemiş alveri, qamış sahəsi, yarış meydanı
- çalışqan uşaq, küsəyən oğlan, zarafatcıl adam
- sərin su, iyirminci əsr, belə əhvalat
- dəmir qapı, qızıl saat, daş hasar

**368.** Biri söz birləşməsidir:

- heç kəs
- lap yaxşı
√ əla növ
- vətən üçün
- dünəndən bəri

**369.** Birinci tərəfi II növ təyini söz birləşməsi ilə ifadə olunan II növ təyini söz birləşməsi hansıdır?

- √ “Qız qalası” operası
- • mənim qardaşımın qızı
- • Qafqaz yeməkləri
- • dərs oxuyan uşaq
- • dərs oxumaq

**370.** Hansı cümlədə xəbərlə mübtəda arasında kəmiyyətə görə uzlaşma pozulub?

- √ Yarpaqlar tökülür, ellər köç edirdi.
- • Quşlar budaqda cəh-cəh vururdular.
- • Sən niyə onu ad gününə dəvət etmirsən?
- • İtlər bir ağızdan hürüşdülər.
- • Yağış yağdı, sel-su bərəni aldı.

**371.** Aşağıdakı cümlələrdən hansında tabesizlik əlaqəsi var?

- • Bizim sizdən gizlin heç nəyimiz yoxdur.
- • Mən səni hər dərdi unudan bilirdim.
- • Nə gözəl yaraşır Muğana ceyran.
- • Azərbaycan iri addımlarla xoş sabahlara irəliləyir.
- √ Mən də, sən də, o da çox dedik, xeyri olmadı.

**372.** Feili birləşmənin əsas tərəfi nə ilə ifadə olunur?

- √ feilin təsriflənməyən formaları ilə
- • feilin mürəkkəb şəkilləri ilə
- • feilin təsriflənən formaları ilə
- • feilin bütün formaları ilə
- • feilin sadə şəkilləri ilə

**373.** Feili birləşmə hansıdır?

- √ kitab oxumaq
- • etiraz etmək
- • təsdiq etmək
- • valeh olmaq
- • təmir etmək

**374.** I növ təyini söz birləşməsinin asılı tərəfi ola bilmir:

- √ feili bağlama
- • say
- • sifət
- • isim
- • feili sifət

**375.** II növ təyini söz birləşməsini göstərin:

- √ alın yazısı
- • dostların söhbəti
- • tarixi hadisə
- • ölkədaxili sabitlik
- • əli silahli

**376.** Birinci tərəfi isimlə ifadə olunmuş I növ təyini söz birləşmələri hansı cərgədədir?

- √ qızıl üzük, dəmir bilək, torpaq yol
- • hər tərəf, dairəvi stol,Tahir əmi
- • gözəl mənzərə, azğın düşmən, beşinci sıra

- vətən məhəbbəti, azadlıq nəğməsi, qurd qapısı
- balıq əti, durna qatarı, qılınc yarası

**377.** Hansı bənddəki iki sözdən söz birləşməsi düzəltmək olmaz?

√ insan, kimi
- ana, qayğı
- vətən, sevmək
- qələm, yaşıl
- Azər, qardaş

**378.** Hansı cümlə üzvləri bir – biri ilə sintaktik əlaqəyə girmir?

√ tamamlıq, zərflik
- zərflik, xəbər
- təyin, zərflik
- tamamlıq, xəbər
- mübtəda, xəbər

**379.** Hansı birləşmədə iki sintaktik əlaqə var?

- illik gəlir

√ mənim bacım
- doğma diyar
- səhər yeməyi
- şəhərdən uzaq

**380.** Nümunələrdən yalnız birində idarə əlaqəsi var:

√ gülü dərmək, dərsi öyrənmək
- yaşıl çəmən, göy otlar
- sən gələndə, mən oxudum
- bərkdən danışmaq, qorxub qışqırmaq
- səmimi söhbət, tibbi yardım

**381.** İdarə əlaqəsi hansı bənddədir?

√ səfərdən qayıtmaq
- üçüncü sıra
- xoş rəftar
- birinci mərtəbə
- qırmızı gül

**382.** Mübtəda ilə xəbər arasında uzlaşma hansı nümunədə pozulmuşdur?

√ Uşaqların bəzisi buna inanmayacaqlar
- Gələnlər yola düşdülər.
- Sürülər dağın ətəyinə yayıldılar.
- O, indi ən yaxşı oxuyan tələbələrdəndir.
- Biz teatrdan qayıtdıq.

**383.** Mən gəldim birləşməsində hansı sintaktik əlaqə növü vardır?

√ uzlaşma
- uzlaşma və idarə
- yanaşma və uzlaşma
- idarə və yanaşma
- idarə

**384.** Hansı birləşmənin hər iki tərəfi isimlə ifadə olunmuşdur?

√ dəri çanta
• oxumaq həvəsi
• qara gün
• duzlu xörək
• maraqlı əsər

**385.** Hansı bənddəki sözlərdən söz birləşməsi düzəltmək olmaz?

√ xalqımız, üçün
• yazı, alın
• cild, kitab
• nəsihət, ata
• Akif, dost

**386.** Hansı cümlədə sözlər arasında tabesizlik əlaqəsi var?

√ O, gözəl, girdəsifət, gənc bir qız idi.
• Əvvəl düşündüklərini söylə
• Əsgərlər döyüşə gedirlər.
• Həqiqəti yalnız mən bilirəm.
• Mən dedim, ancaq o eşitmədi.

**387.** Mübtədası və xəbəri sayla ifadə olunmuş cümlə hansıdır?

√ Birincilər həmişə birincidir.
• Qaçanlar birdən dayandılar.
• Dünənki ılıq hava bu gün yoxdur.
• Gecələr uzun, gündüzlər isə qısa idi.
• Qocalar yaşlarına baxmayaraq, qıvraq və cəld idilər

**388.** İlan ilan yeməyincə əjdaha olmaz cümləsinin sintaktik təhlili ilə bağlı fikirlərdən hansı səhvdir?

√ Cümlədə 4 cümlə üzvü var.
• Cümlənin xəbəri «əjdaha olmaz»dır.
• Zərflik quruluşca mürəkkəbdir.
• 3 cümlə üzvü var.
• "İlan" mübtədadır.

**389.** Hansı cümlədə məsdər tərkibi səbəb zərfliyi vəzifəsindədir?

√ Torpaqla məşğul olmaqdan əlləri cadar-cadar olmuşdu.
• Rəhman atası ilə danışmağı özünə sığışdırmırdı.
• Boş-boş danışmaqdan bir şey çıxmaz.
• Qardaşı ilə görüşmək onu çox sevindirdi.
• Şəhəri düşmən hücumundan qorumaq üçün böyük texnikalar gətirilirdi.

**390.** Hansı cümlədə təyin II növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur ?

√ Polis rəisi Kərimov prokurora zəng vurdu.
• Al-qırmızı gülləri ağ güldana yığan qızın təbəssümü yadımdan çıxmayıb.
• Sakit-sakit dalğalanan dəniz birdən təlatümə gəldi.
• Mühəndis Sultanov dəri paltosunu geyindi.
• Firuzə rəngli kuzələri doldurdu.

**391.** Hansı cümlədə vasitəsiz tamamlıq sadə isimlə ifadə olunmuşdur ?

√ Ovçu özünə yeni tüfəng aldı.
• Vəli onu hərarətlə salamladı.
• Biz onları sevinclə qarşıladıq.

- Vətənim verdi mənə nanü-nəmək.
- Qoca ağacla yeriyirdi.

**392.** Cümlələrin birində söz birləşməsi ilə ifadə olunmuş zərflik vardır:

√ Küçənin ortasında əzəmətli bir heykəl ucalırdı.
- Bu dağları gəzməyə gəlmişəm.
- Şəhərdə böyük bir ehtişam vardı.
- Dostum bu əhvalatı gülərək danışırdı.
- Göylərin üzü birdən tutuldu.

**393.** Mürəkkəb tamamlıqlı cümlə hansıdır?

√ O, idman etməyi xoşlayır.
- Məmməd heç vaxt iradəsinə zidd getməyi xoşlamırdı.
- İndi o da işinə ciddi yanaşandır.
- Əsas sənədləri yoxlamaq Murada tapşırıldı.
- O, təkbaşına idman etməyi xoşlayır.

**394.** Cümlələrdən birinin təyini birinci növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur:

√ Onun gözləri qarşısında qızılı saçlı, mavi gözlü bibisi Aləmşahbəyim dayanmışdı.
- 1873- cü ildə Bakıda Milli teatr yaradıldı.
- Yeni ədəbiyyat kitabı şagirdlərin istifadəsinə verilirdi.
- Bu şəkillərin müəllifi xalq rəssamı Əzim Əzimzadədir.
- Arxlardan axan dağ suları burula-burula uzanıb gedirdi.

**395.** Hansı cümlədə tamamlıq ikinci növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur?

√ Kursumuza gələn tələbələr hər gün test sualları yazırlar.
- İnsan arzusu bitib-tükənmək bilmir.
- Qonşu bağdan musiqi səsi gəlir, gülüş səsləri ucalırdı.
- Yarməmmədin səsi quyunun dibindən gəldi.
- Kənd yolu təzəcə abadlaşdırılmışdı

**396.** Hansı cümlənin xəbəri sifətdən düzələn fellə ifadə olunub?

√ Mənim babam çox qocalıbdır.
- İdarəyə gətirilmiş qəzetlər dünənkidir.
- Məncə, məsələnin həlli düzgündür
- Məktub sahibinə çatdırılmışdır.
- Deyilənə görə, xəstənin vəziyyəti yaxşıdır.

**397.** Hansı cümlənin xəbəri mürəkkəbdir?

√ Amilin atası təcrübəli inşaat mühəndisidir
- Son vaxtlar Fazil çox işlə məşğul olurdu.
- Seçkilər ərəfəsində o, seçicilərlə görüşməli imiş.
- Bizim müsahibimiz cəsarətli və açıqfikirlidir.
- Bəzi sözləri baxışlardan da oxumaq mümkündür.

**398.** Hansı cümlənin xəbəri sifətdən düzəlmiş feillə ifadə olunmuşdur?

√ O, təzəcə yaxşılaşırdı.
- Siz bu gün necə də gözəlsiniz.
- Bu meyvə yeməlidir
- Dostlarımın sayı lap çoxalmışdı.
- O, birdən dilləndi.

**399.** Hansı nümunədə ismi xəbər yoxdur?

- √ Şəhidlər xiyabanı. Dilə gəlir məzarlar...
- Kür qırağının əcəb seyrangahı var.
- Söz vardır, kəsər savaşı.
- Səidənin bacısı tələbədir.
- Ayazlı-şaxtalı bir qış axşamı idi.

**400.** Hansı cümlənin mübtədası sifətlə ifadə olunmuşdur?

- İnsan müqəddəs bir varlıqdır.
- Havaya atılan fişənglər rəngbərəng işıq saçırdı.
- Soyuqdan hamı titrəyirdi.
- «Qoca və dəniz» romanı E. Heminquey yaradıcılığının zirvəsidir.
- √ İclasdakılar bu qərara çox təəccübləndilər.

**401.** Xəbəri frazeoloji birləşmə ilə ifadə olunmuş cümləni göstərin:

- √ Yada düşdü nişanlısı, nazlı sular sonası da...
- Əlindəki fincan yerə düşüb sındı.
- Ona biz vaxtında çox kömək etmişik
- Oğlunun yazdığı məktubu oxuya bilmədi.
- O, qatarda tanımadığı bir adamla görüşdü.

**402.** Məqsəd zərfliyi hansı cümlədədir?

- √ Ana cəbhədəki oğluna göndərmək üçün corab toxuyurdu.
- Ana oğlundan məktub aldığı üçün çox sevinirdi.
- Ana bütün gecəni yatmadığı üçün gözləri qızarmışdı.
- Ana uzaqdan gəldiyinə görə yorğun görünürdü.
- Ana çox ağladığından gözləri qızarmışdı.

**403.** Kəmiyyət zərfliyi işlənmiş cümləni göstərin:

- √ Müəllim bu sözü dəfələrlə bizə demişdi.
- Mən onu tələbəlik illərindən tanıyıram
- Dilimizdəki bir neçə belə söz istisnadır.
- Tədbirdə fakültənin bütün tələbələri iştirak edirdi
- Kitabxanamız üçün xeyli təzə kitab alınıb.

**404.** niyə? hansı cümlə üzvünün və ya üzvlərinin sualıdır?

- √ səbəb zərfliyi və məqsəd zərfliyinin
- səbəb zərfliyi və kəmiyyət zərfliyinin
- yalnız səbəb zərfliyinin
- yalnız məqsəd zərfliyinin
- kəmiyyət zərfliyinin

**405.** İsmin hansı halında olan sözlər heç vaxt zərflik ola bilmir?

- √ yiyəlik
- yönlük
- çıxışlıq
- yerlik
- təsirlik

**406.** Hansı cümlədə təyin ismi birləşmə ilə ifadə olunub?

- √ Mənim rəfiqəm Səidə burada yoxdur.
- Qala qapıları yavaş-yavaş açıldı.
- Qızıl payız öz ətrini dağa, çəmənə yaydı.

- Bu gün açıq-saçıq geyinən bir müğənni vətən uğrunda şəhid olmuş milli qəhrəmanların hamısından məşhurdur, bu isə dəhşətdir! Dəhşət!
- Təkcə pöhrələnən ağaclara baxmaqdan zövq alırdım.

**407.** Hansı cümlədə təyin zərflə ifadə olunmuşdur?

√ Aşağı mərtəbələr tərtəmiz idi.
- Dünən gələn qonaqlar geri qayıdırdı.
- O,dar cığırla yuxarı qalxırdı.
- Səhərki külək çox şiddətli idi.
- Qabaqdakı sıralar bomboş idi.

**408.** Hansı cümlədə həmcins təyin yoxdur?

- Anar çalışqan və intizamlı tələbədir.
- O,soyuq, şaxtalı günlərdə də işdən qalmır.
- Məktəbə bacarıqlı, istedadlı uşaqlar qəbul olunur.

√ Kənddə qırmızı kərpiç binalar çoxdur.
- Bağda ağ, sarı güllər açılmışdı.

**409.** Tərkibində təyin olan cümləni göstərin:

√ Sex rəisi məsuliyyətli işçidir.
- Əsərin nikbin sonluğu məni çox təsirləndirdi.
- Sənubər xala uşağı mehribanlıqla dindirdi.
- Yayın bürkülü havası adamı darıxdırırdı.
- Xalqımız sənətkarlarını ehtiramla xatırlayır.

**410.** Mən görmüşəm bu qürbətin dadını cümləsində tamamlıq nə ilə ifadə olunmuşdur?

√ III növ təyini söz birləşməsi ilə
- sifətlə
- II növ təyini söz birləşməsi ilə
- feili sifət tərkibi ilə
- isimlə

**411.** Tamamlıq, əsasən, hansı cümlə üzvü ilə bağlı olur?

√ feili xəbərlə
- təyin və əvəzliklə
- mübtəda ilə
- ismi xəbər və zərfliklə
- zərfliklə

**412.** Hansı cümlədə tamamlığın hər iki növü işlənmişdir?

√ Müəllim tələbələrə kitab payladı.
- Neftdən müxtəlif yağlar alınır
- Uşaqlar bağcada gül, çiçək dərdilər.
- Sənə hər şeydən əvvəl kitab, dəftər, qələm lazımdır
- İclasda onun haqqında çox danışdılar.

**413.** Cümlələrin birində tamamlıq təsirlik halda olan sadə isimlə ifadə olunub:

√ X sinif şagirdlərinə mükafat verdilər.
- Onun atası neft mühəndisidir.
- Uşaq gah ağlayır, gah da gülürdü.
- Bu yaxşılığı heç vaxt unutmaram.
- Cərrah Əli bizim təzə qonşumuzdur.

**414.** Cümlələrin birində xəbər sayla ifadə olunmuşdur:

- √ Sənin bütün qiymətlərin beşdir.
- • Yanan lampa yüzlükdür.
- • Onların sözündə bir həqiqət var.
- • Onunculara təşəkkür edildi.
- • Onlar kənddə yaşayırlar.

**415.** Xəbər hansı cümlə üzvünə aid olur?

- √ mübtədaya
- • zərfliyə
- • tamamlığa
- • heç birinə
- • təyinə

**416.** Hansı cümlədə mürəkkəb mübtəda verilmişdir?

- √ Dünyanın dərdini çiynində daşıyanlar da mənim dərdimi bilmirlər.
- • Ay qızım, sənin dərs oxumağını niyə görmürəm?
- • Vətən- ana. Ey odlar diyarı, sənə canım qurban
- • Ey zalım, nə qədər zülm edəcəksən bizə sən?
- • Mənim qəlbimdəki fikir səni narahat etməsin.

**417.** İclası kim aparacaq? cümləsində mübtəda nə ilə ifadə olunmuşdur?

- √ sual əvəzliyi ilə
- • sifətlə
- • şəxs əvəzliyi ilə
- • qeyri-müəyyən əvəzliklə
- • isimlə

**418.** Hansı cümlənin mübtədası sayla ifadə olunmuşdur?

- √ Altıncılar bu yarışda qalib gəldilər
- • Qocalara qayğı lazımdır
- • Bunu hamı bilir.
- • Deyilən söz yadigardır.
- • Birisi yazı yazırdı, birisi qulaq asırdı.

**419.** ...... cümlənin baş üzvü olub, haqqında danışılan şəxsi, əşyanı bildirir:

- √ mübtəda
- • tamamlıq
- • təyin
- • zərflik
- • xəbər

**420.** Hansı nümunədə həmçins üzv işlənməmişdir?

- • Yanan da, yaman da mənəm.
- • Arif hər gün işə vaxtında gələr, verilən tapşırıqları dəqiq yerinə yetirərdi.
- √ Mərd özündən bilər, namərd özgəsindən.
- • İclasda nə mənə, nə də sənə söz verəcəklər.
- • Məktəbdəki tədbirdə müəllim, şagird və valideynlər iştirak edəcəklər.

**421.** Həmçins zərflikli cümləni göstərin:

- • Eşq olsun bu müqəddəs varlığa!
- √ Ona görə də təbiətə qayğı və məhəbbətlə yanaşılmalıdır.

- Sonra parkın kənarı ilə keçərək məktəbə doğru yollandıq.
- Mikayılın və döyüş yoldaşlarının payına çətin vəzifə düşmüşdür.
- “Kitabi-Dədə Qorqud” dastanında maraqlı bir epizod var.

**422.** Həmcins mübtədalı cümlə hansıdır?

- Aytən, Ülvi, kitabları gətirin.
- Kitab,dəftər və qələm satırlar.
- √ Şuşa, Laçın, Kəlbəcər azad olunmalıdır.
- Qızıl və gümüş saatlar aldılar.
- Akif və Vüqar gələndə biz getdik.

**423.** Hansı söz xitab kimi işlənə bilməz?

- ana
- √ irəli
- uşaq
- alim
- dostlar

**424.** Xitabla bağlı fikirlərdən yalnız biri doğrudur:

- Cümlənin yalnız əvvəlində işlənir.
- Cümlə üzvləri ilə sintaktik əlaqəyə girir.
- Tərkibinə görə xitablar yalnız bir sözdən ibarət olur.
- √ Xitablar ay, ey, a, hey kimi köməkçi vasitələrlə birlikdə də işlənir.
- Xitab yalnız insana aid sözlərlə ifadə olunur.

**425.** Xitab haqqında yürüdülən fikirlərdən biri səhvdir:

- Cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir.
- √ Cümlənin xəbəri ilə uzlaşır.
- Cümlədə müraciət olunanı bildirir.
- Cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir.
- İsmin adlıq halında işlənir.

**426.** Biri yəqinlik bildirən ara söz deyil:

- düzü
- həqiqətən;
- şübhəsiz
- √ beləliklə
- əlbəttə

**427.** Həmcins üzvlər haqqında yürüdülən fikirlərdən biri səhvdir:

- Bütün cümlə üzvləri həmcins ola bilər.
- √ Həmcins üzvlər yalnız tabesizlik bağlayıcıları vasitəsilə əlaqələnir.
- Həmcins üzvlər bərabərhüquqlu olur.
- Eyni qrammatik formaya malik olur.
- Eyni bir cümlə üzvü ilə bağlı olur.

**428.** Hansı həmçins üzvlü cümlədə cəm şəkilçisi ixtisar olunub?

- Suallar, tapşırıqlar və qarşısındakı öhdəliklər o qədər ağır idi ki, bütün bunları bacarmayacağını düşünürdü.
- √ İmtahan zalında müəllim, şagird və valideyinlər də nəzarət altında idilər.
- İllər keçdikdən sonra məni qarşılamağa gələnlər arasında ana və atamı görmədim.
- Həyatda hər şeyə öz gücüm, bacarığım və qabiliyyətimlə nail olmaq istəyərdim.
- Dost, qardaş və ailəsini görmək eşqi ilə o, bu dəfə də şəhərə gəlməli oldu.

**429.** Hansı cümlədə həmçins xəbər işlənib?

- Get-gedə mübahisələr ciddiləşir, tələbələr, deyəsən, üstünlük qazanırdılar.
- √ Hər gün olduğu kimi, bu gün də qoca sahilə gəldi, iti nəzərləri ilə dənizi xeyli seyr etdi.
- Yağış yağır, güclü külək əsirdi.
- Osman ehtiyatla bulağa yaxınlaşdı, onu görən ceyran hürküb qaçdı.
- İclasda alimlər də, elmi işçilər də bu qərarı dəstəklədilər.

**430.** Həmcins xəbərlər hansı cümlədədir?

- Mən oyanmışdım, yoldaşlarım isə hələ də şirin yuxuda idilər.
- √ Dilşad səhər tezdən durur, əl-üzünü yuyur, sonra isə anasına su gətirirdi.
- Şaxta getdikcə artır, duman kəndi bürüyürdü.
- Mərdan getdi, ailənin sevinci, rahatlığı bitdi.
- Torpaq qızır, qar əriyir, çaylar daşır.

**431.** Nəhayət, gənc qız yalançı dilənçiyə müraciət etdi cümləsində ara sözün mənaca növünü müəyyənləşdirin:

- güman, sübhə bildirən
- yəqinlik bildirən
- √ nəticə və nitqin hissələri arasında əlaqəni bildirən
- fikrin mənbəyini bildirən
- təəssüf bildirən

**432.** Hansı nümunədə ara söz işlənməməşdir?

- Bəlkə, birisinin vurduğu ləkə dönüb olacaqdır sonsuz həqiqət.
- Sən demə, dağlara qar ələnərmiş, dumandan xəbərsiz, çəndən xəbərsiz.
- Görünür, razısan öz taleyindən,Nə zamandır məni soraqlamırsan.
- Anlaya bilmədim, düzü, bu sirri.
- √ Eh nə qədər güman, nə qədər bəlkə çevrilib dünyada olub həqiqət.

**433.** Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər hansılardır?1)ara sözlər 2)əlavələr 3)həmcins üzvlər 4)xitab

- 3,4
- 1,3
- 1,2
- √ 1.4
- 2,3

**434.** Cümlələrin birində mürəkkəb xitab işlənməyib:

- Azərbaycan əsgəri, marş irəli!
- Ey mənim həqiqi dostum, fikrin nədir?
- Sən ey gurlayan dəniz, məni dinlə.
- Seyr et bu varlığı, şeyda bülbülüm.
- √ Niyə elə danışırsan, ay bala, bizdən razı deyilsən?

**435.** Xitab haqqında fikirlərdən biri səhvdir:

- √ Çox vaxt xəbərlə uzlaşma əlaqəsinə girir.
- Həm sözlərlə, həm də söz birləşmələri ilə ifadə olunur.
- Mübtəda kimi ismin adlıq halında olur.
- Cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir
- Cümlədə müraciət olunanı bildirən sözlərə deyilir.

**436.** Biri sual cümləsidir:

- √ Bəs nə üçün mənim suallarıma cavab vermirsən?
- Sabah hamı dərsə hazır gəlsin!

- Bu gün hava çox istidir.
- Səbr elə, kişi, nahaq qan yerdə qalmaz!
- Şagirdlər yarışa yaxşı hazırlaşmışdılar.

**437.** Verilmiş cümlələrdən hansı nida cümləsidir?

- Hamı susurdu, heç kim danışmırdı.
- √ Sən nə yamansan, a buz?! Adam yıxansan, a buz!
- Ətrafı sakitlik bürümüşdü.
- Əlaçı tələbələr mükafatlandırıldılar.
- Görəsən, onlar nə vaxt qayıdacaqlar?

**438.** Cümlələrin hansı nəqli cümlədir?

- Qoy həmişə günəş olsun!
- √ Havadan baharın ətri gəlirdi.
- Uşaqlar, dərsə hazırsınızmı?
- Sən sus, danışma.
- Sən hamıdan gözəlsən, sevgilim!

**439.** Qeyri-müəyyən şəxsli cümləni tapın:

- √ Toyda təbrik üçün mənə də söz verdilər.
- Yıxılana gülməzlər.
- Ailəmizdə təhsilə ciddi fikir verilir.
- Ad günümdə xaricdəki tanışlarım zəng vurub məni təbrik edirlər.
- Dostu dar gündə sınayırlar.

**440.** Müəyyən şəxsli geniş cümlə hansıdır?

- Dünən məsələyə baxıldı.
- Verilən tapşırığa vaxtında əməl edərlər.
- Xəstəni sakitləşdirmək üçün xeyli əziyyət çəkdilər.
- Dostumun böyük oğlu təhsil şöbəsinin müdiridir.
- √ Həvəslə danışdım

**441.** And olsun yeri, göyü Yaradana! Cümlənin növünü tapın:

- adlıq cümlə
- √ şəxssiz cümlə
- qeyri-müəyyən şəxsli cümlə
- ümumi şəxsli cümlə
- müəyyən şəxsli cümlə

**442.** Ümumi şəxsli cümlə hansıdır?

- Ölkəmizin ərazisində qədim insan məskənləri aşkar etmişlər.
- Tariximizi, mədəniyyətimizi qorumağa borcluyuq.
- Qız qalasına bənzər təsvirləri Qobustan qayaüstü rəsmlərində də müəyyənləşdirmişlər.
- Azərbaycanın işğal olunmuş ərazilərindəki mədəniyyət abidələrimizə xeyli ziyan vurmuşlar.
- √ Adətimizə görə, böyüyə də, qonağa da hörmət edərlər.

**443.** Xəbəri frazeoloji birləşmə ilə ifadə olunan müəyyən şəxsli cümləni göstərin:

- √ Onun geri dönməməsi ananın qəlbinə toxunmuşdu.
- Mənim tanrım gözəllikdir, sevgidir.
- Qəbul imtahanları yaxınlaşır.
- Mənim ondan gözüm su içmirdi.
- XX əsrin sonları idi.

**444.** İsmi xəbərli müəyyən şəxsli geniş cümləni göstərin:

- İstirahət gününün xoş saatları idi.
- √ Bu gün milli mənafe hər şeydən vacibdir.
- Xəstənin ümumi vəziyyəti yaxşıdır.
- Elçinin atasının dostları neft işçiləridir.
- Əldən qalan əlli il qalar.

**445.** Qeyri-müəyyən şəxsli cümlə haqqında yürüdülən fikirlərdən biri səhvdir:

- Tərkibində bəzən "guya , sanki, elə bil ki" və s. sözlərindən istifadə olunur.
- Qeyri-müəyyən şəxsli cümlələr, əsasən, geniş olur.
- Xəbəri III şəxsin cəmində olur.
- Hərəkət və ya hökmün qeyri – müəyyən şəxsə aid olduğunu bildirir.
- √ Xəbəri həm feili, həm də ismi xəbər ola bilər.

**446.** Biri şəxssiz cümlədir:

- √ Milli ordumuzun gücləndirilməsinə xüsusi diqqət yetirilir.
- Bu jurnalda maraqlı məqalələr dərc edilir.
- Torpaq sürüşməsinin qarşısını almaq üçün bu yerlərdə ağac əkilir.
- Sözünün yerini bilməyənin gərək dərsini verəsən.
- Toyda təbrik üçün mənə də söz verdilər.

**447.** Şəxssiz cümlə haqqında yürüdülən fikirlərdən biri səhvdir:

- √ Şəxssiz cümlələrdə çox vaxt "sanki, elə bil ki " sözləri işlənir.
- Mübtədası olmur, onu təsəvvür və ya bərpa etmək də qeyri-mümkün olur.
- Xəbəri feili frazeoloji birləşmələrlə də ifadə oluna bilir.
- Xəbəri, əsasən, şəxssiz növ fellərlə ifadə olunur.
- Xəbəri üçüncü şəxsin təkinə aid olur.

**448.** Verilmiş atalar sözlərindən hansılar təktərkibli ümumi şəxsli cümlələrdir?1) Suda batan saman çöpündən yapışar. 2) Yalan ayaq tutar, yeriməz. 3) Söyləyənə baxma, söylədiyinə bax.4) Dost dar gündə tanınar.5) Ağrımayan başa dəsmal bağlamazlar.

- 2.4
- 2.5
- √ 3.5
- 1.3
- 1.4

**449.** Mətndə neçə müxtəsər cümlə işlənib?İş gününün sonu yaxınlaşırdı. Şəfqət bacılarının hamısı məşğul idi. Həkim sonuncu palatada pəncərə qabağındakı çarpayıda uzanan xəstəyə yaxınlaşdı. Xəstə bunu hiss etmədi. O, fikrə getmişdi.

- √ 3
- işlənməyib
- 4
- 2
- 1

**450.** İsmi xəbərli cüttərkibli geniş cümləni göstərin:

- √ Müasir dövrdə iqtisadiyyatın inkişafı hər şeydən önəmlidir.
- XX əsrin sonları idi.
- Bu günlər ömrümün ən xoş anlarını yaşayıram.
- Həsən müəllim məktəb direktorudur.
- Məmmədin qardaşının dostu iş adamıdır.

**451.** Söz-cümlə haqqındakı fikirlərdən biri yanlışdır:

- Söz-cümlələrdən sonra intonasiyadan asılı olaraq müxtəlif durğu işarələri (nöqtə, üç nöqtə, nida, sual işarəsi) qoyulur.
- Bəzən nidalar, ədatlar və modal sözlər təklikdə işləndikdə bitmiş fikir ifadə edir və söz-cümlə kimi formalaşır.
- √ Söz-cümlələr cümlədə, əsasən, xəbər vəzifəsində işlənir
- Söz-cümlələr üzvlənmir.
- Bir sözdən ibarət olur.

**452.** Nida cümlələrini müəyyənləşdirin:1)Pah atonnan, nə ağır yatdı bu oğlan, ölüb ə…!2)Bir sən ol, bir də mən, bir də dərdimiz!3)Ağlayaq doyunca, gülək doyunca4)Var olsun azad yurdun azad oğulları!5)Yaşasın anamız müqəddəs Vətən!6)Yenə tovuz kimisən, nə gözəl bəzənmisən?

- 4.5
- 2.4
- √ 1,3,4
- 2,4,5
- 1.3

**453.** Biri geniş adlıq cümlədir:

- Toy.
- Payız.
- √ Dağın ətəyində gözəl bir mənzərə.
- Nəğmələr.
- Axşam.

**454.** Qeyri-müəyyən şəxsli cümləni müəyyənləşdirin:

- √ Onun səmimiliyi və sədaqəti barədə indi də danışırlar.
- Verilən tapşırıqlara vaxtında əməl edilməlidir.
- Ürək xəstəliyinə tutulandan sonra övladları onu yerindən tərpənməyə qoymurdular.
- Müstəntiqlər bir azdan onu dindirəcəklər.
- İşləməyənə tənbəl deyərlər.

**455.** Məsələyə baxılacaq cümləsinin növünü müəyyənləşdirin:

- √ Şəxssiz cümlədir.
- Müəyyən şəxsli cümlədir.
- Adlıq cümlədir.
- Qeyri-müəyyən şəxsli cümlədir.
- Ümumi şəxsli cümlədir

**456.** Cavan olanda məgər sözə baxmazlar? cümləsi sadə cümlənin hansı növünə aiddir?

- √ ümumi şəxsli cümlə
- adlıq cümlə
- müəyyən şəxsli cümlə
- qeyri-müəyyən şəxsli cümlə
- şəxssiz cümlə

**457.** Ümumi şəxsli cümlə haqqında yürüdülən fikirlərdən biri səhvdir:

- √ Xəbəri yalnız III şəxsin təkində işlənir.
- Ümumi şəxsli cümlələr,əsasən, geniş olur.
- Əsasən, atalar sözləri və məsəllərdən ibarət olur.
- Ümumiləşmiş mənalar ifadə edir.
- Hərəkət və ya hökmün eyni zamanda hamıya aid olduğunu bildirir.

**458.** Təktərkibli cümlələr haqqındakı fikirlərdən biri yanlışdır:

- Bu cümlələr iki növə ayrılır: xəbər və mübtəda əsasında formalaşanlar.
- √ Təktərkibli cümlələr yalnız geniş olur.

- Təktərkibli cümlələr baş üzvlərdən biri əsasında formalaşır.
- Adlıq cümlə mübtəda əsasında formalaşır.
- Xəbər əsasında formalaşan təktərkibli cümlələrin üç növü var.

**459.** Xəbəri frazeoloji birləşmə ilə ifadə olunmuş cüttərkibli cümləni göstərin:

- Gözüm  ondan su içmir.
- Qəbul imtahanları yaxınlaşır.
- √ Onun bu tikanlı sözləri ananın qəlbinə toxundu.
- May ayının axırları idi.
- Burada xallı ceyrana az-az təsadüf edilir.

**460.** Axşamlar Mehman kişi qızı Zərifəni dizinin üstündə oturdar, onun xurmayı saçlarını sığallayar, ona çoxlu nağıl və əfsanə danışardı cümləsi haqqında yürüdülən fikirlərdən hansı doğrudur?

- √ Cüttərkibli sadə, geniş cümlədir.
- Müxtəsər cümlədir.
- Tabeli mürəkkəb cümlədir.
- Tabesiz mürəkkəb cümlədir.
- Təktərkibli cümlədir.

**461.** Hansı təktərkibli müxtəsər cümlədir?

- √ Gözü ayağının altını görmür.
- Nadir universitet tələbəsidir.
- Kitab sizindir?
- İçəridə Arzunun tanımadığı adamlar da var idi
- Direktorun müavini otağa daxil oldu.

**462.** Biri əmr cümləsidir:

- Ananın tənbəl oğlu hambal olar.
- Yol böyüyündür, su kiçiyin.
- √ O olmasın, bu olsun.
- Olmadı elə, oldu belə!
- Qış sərt keçdi.

**463.** Qar yağır  cümləsinin sonunda durğu işarəsi qoyulmasa, onu məqsəd və intonasiyaya görə hansı cümlə növünə aid etmək olar?

- nəqli cümləyə
- √ heç birinə
- əmr cümləsinə
- sual cümləsinə
- nida cümləsinə

**464.** Sual cümləsi neçə yolla düzəlir?

- 1
- 2
- √ 3
- 5
- 4

**465.** Biri söz-cümlədir:

- Oxumaq, oxumaq, yenə də oxumaq.
- √ –Dərslərini öyrənmisən?- Əlbəttə.
- Qışın ortaları… Qar… Çovğun…
- Səhərdir.
- – Hara gedirsən?- Məktəbə.

**466.** Hansı məsdər cümlədir?

- Axşam… Göy fikirli… Dəniz nigaran… (N.Xəzri)
- Stadion. Səs-küy. Futbol yarışı…
- √ Hər ehtimala qarşı hazır olmaq və düşməni məhv etmək.
- Baharın son günləri idi.
- – İsmayılzadəni tanıyırsanmı? - Bəli (H.Mehdi)

**467.** Dur, and iç Babəkin məzarı üstə,Elləri bir yeni, ağ günə səslə! cümləsinin növünü müəyyənləşdirin:

- √ müəyyən şəxsli cümlə
- tabesiz mürəkkəb cümlə
- qeyri-müəyyən şəxsli cümlə
- şəxssiz cümlə
- ümumi şəxsli cümlə

**468.** Bu məktubu sizə hərbi hissədən göndəriblər cümləsi sadə cümlənin hansı növünə aiddir:

- cüttərkibli geniş
- yarımçıq cümlə
- cüttərkibli müxtəsər
- təktərkibli müxtəsər
- √ təktərkibli geniş

**469.** Məqsəd və intonasiyaya görə sadə cümlənin neçə növü var?

- 5
- √ 4
- 3
- 2
- 6

**470.** Biri məqsəd və intonasiyaya görə sadə cümlə növü deyil:

- nəqli cümlə
- sual cümləsi
- nida cümləsi
- √ müxtəsər cümlə
- əmr cümləsi

**471.** Hansı cümlələr əmr cümləsidir? 1)Sabah hamı vaxtında yarış meydanında olsun! 2)Bəs nə üçün deyilən vaxtda gəlib çıxmadın? 3)Hamı diqqətlə ona qulaq asırdı.4)Kim Nizami Gəncəvi haqqında ətraflı məlumat verər? 5)Sən buradan birbaşa evə get.

- √ a,e
- c,e
- d,a
- d,e
- b,e

**472.** Verilmiş cümlələrdən biri əmr cümləsidir

- √ Hamı vətən uğrunda döyüşə hazır olsun!
- Görəsən, sabah hava necə olacaq?
- Bu hadisədən sonra onun elmə həvəsi daha da artdı.
- Bəs nə üçün onların haqqında polisə məlumat vermədiniz?
- Tələbələr imtahanları müvəffəqiyyətlə verdilər.

**473.** P.Vaqif neçənci əsrdə yaşayıb yaradıb?

- XIV əsr
- XIX əsr
- XVI əsr
- √ XVIII əsr
- XII əsr

**474.** Biri Xaqani Şirvaninin əsəridir:

- "Dəhnamə"
- "Leyli və Məcnun"
- √ "Töhfətül - İraqeyn"
- "İsgəndərnamə"
- "Nəsihətnamə"

**475.** Xaqani Şirvani neçənci əsrdə yaşayıb-yaratmışdır?

- XVIII əsrdə
- X əsrdə
- XVI əsrdə
- XV əsrdə
- √ XII əsrdə

**476.** Kitabi– Dədə Qorqud dastanı nə vaxt yaranmışdır?

- XIII əsrdə
- √ İslamdan öncə və onun yaranışının ilkin dövründə
- XI-XIII əsrlərdə
- XVI əsrdə
- XIV-XV əsrlərdə

**477.** Aşağıdakılardan biri əfsanədir:

- "Məlikməmməd"
- √ "Pərvanə və od"
- "Cırtdan"
- "Ağ atlı oğlan"
- "Göyçək Fatma"

**478.** Dərələrdən sel kimi, təpələrdən yel kimi ifadələri folklorun hansı janrında daha çox işlənir?

- √ nağıllar
- dastanlar
- əfsanələr
- atalar sözü və məsəllər
- lətifələr

**479.** Folklorun oxşar məzmunlu janrları hansılardır?I nağıl və məsəl.II ağılar və atalar sözləri.III holavarlar və sayaçı sözləri.IV laylalar və oxşamalar

- I,III
- I,IV
- II,III
- II,IV
- √ III, IV

**480.** Aşağıdakılardan hansı atalar sözü deyil?

- Ağıl yaşda deyil, başdadır.
- Bu günün işini sabaha qoyma.
- Gülmə qonşuna, gələr başına.

- √ Burada mənəm, Bağdadda kor xəlifə.
- Yersiz gəldi, yerli qaç.

**481.** M.Ə.Sabirin əsərləri hansı ad altında çap olunmuşdur?

- "Şikayətnamə"
- √ "Hophopnamə"
- "Nəsihətnamə"
- "Dəhnamə"
- " İsgəndərnamə"

**482.** Aşağıdakılardan hansı M.F.Axundzadənin komediyalarına aid deyil?

- √ "Aldanmış kəvakib"
- "Hekayəti-xırs quldurbasan"
- "Mürafiə vəkillərinin hekayəti"
- "Hekayəti-Molla İbrahimxəlil kimyagər"
- "Hacı Qara"

**483.** Aşağıdakı klassiklərdən hansı şairlikdən əlavə Qarabağ xanının baş vəziri kimi fəaliyyət göstərmişdir?

- √ M.P.Vaqif
- İ.Nəsimi
- M.Füzuli
- N.Gəncəvi
- M.Gəncəvi

**484.** Ş. İ.Xətayi neçənci əsrdə yaşayıb yaradıb?

- XVII – XVIII əsrlər
- XI-XII əsrlər
- √ XV-XVI əsrlər
- XIII əsr
- XIX əsr

**485.** Ş.İ.Xətayinin əsərləri hansı sırada verilmişdir?

- √ "Nəsihətnamə", "Dəhnamə"
- "Xosrov və Şirin", "Sirlər xəzinəsi"
- "Şikayətnamə", "Söhbətül-əsmar"
- "Leyli və Məcnun", "Rindü-Zahid"
- "Yeddi gözəl", "İsgəndərnamə"

**486.** İ.Nəsimi hansı əsrə məxsus görkəmli şairdir?

- √ XIV-XV əsrlər
- XIX-XX əsrlər
- XVII əsr
- IX əsr
- XII əsr

**487.** İ.Nəsimi harada anadan olunmuşdur?

- √ Şamaxıda
- Ərdəbildə
- Qarabağda
- Bakıda
- Gəncədə

**488.** Qəzəl janrının ustadı kimdir?

- √ M.Füzuli
- M.Gəncəvi
- Ş.İ.Xətayi
- M.P.Vaqif
- İ.Nəsimi

**489.** M.Füzulinin ana dilində yazdığı əsər hansıdır?

- √ “Leyli və Məcnun”
- “Həft cam”
- “Ənisül-qəlb”
- “Söhbətül-əsmar”
- “Bəngü-badə”

**490.** M. Füzuli əsərlərini hansı dildə yazmışdır?

- ərəb, fars
- fars
- ərəb
- Azərbaycan
- √ Azərbaycan,ərəb,fars

**491.** Aşağıdakı əsərlərdən biri M.Füzulinin alleqorik əsəri deyil:

- √ “Leyli və Məcnun”
- “Yeddi gözəl”
- “Səhhət və Mərəz”
- “Bəngü-badə”
- “Söhbətül- əsmar”

**492.** Aşağıdakılardan biri N.Gəncəvinin Xəmsə sinə daxildir:

- Şikayətnamə
- “Bəngü-badə”
- Dəhnamə
- Töhfətül-İraqeyn
- √ “Xosrov və Şirin”

**493.** N.Gəncəvinin son poeması hansıdır?

- √ “İsgəndərnamə”
- “Yeddi gözəl”
- “Sirlər xəzinəsi ”
- “Leyli və Məcnun”
- Xosrov və Şirin

**494.** N.Gəncəvinin ilk poeması hansıdır?

- √ “Sirlər xəzinəsi ”
- “Xosrov və Şirin”
- “Leyli və Məcnun”
- “İsgəndərnamə”
- “Yeddi gözəl”

**495.** N.Gəncəvinin İsgəndərnamə əsəri neçə hissədən ibarətdir?

- √ 2
- 5
- 3

- 4
- 1

**496.** Aşağıdakılardan biri N.Gəncəvinin Xəmsə sinə daxil deyil:

√ "Nəsihətnamə"
- "Yeddi gözəl"
- "Leyli və Məcnun"
- "Xosrov və Şirin"
- "Sirlər xəzinəsi"

**497.** Kitabi-Dədə Qorqud dastanının Drezden nüsxəsi neçə boydan ibarətdir?

- 7
- 10

√ 12
- 5
- 8

**498.** Hansılar folklorun lirik növünə aid deyil?

√ əfsanə və lətifələr
- tapmacalar və yanıltmaclar
- laylalar və oxşamalar
- bayatılar və ağılar
- holavarlar və sayaçı sözləri

**499.** Şifahi xalq ədəbiyyatının tarixən daha qədim sayılan janrı hansıdır?

√ nəğmələr
- mahnılar
- xalq dramları
- dastanl
- tapmacalar

**500.** Azərbaycan Respublikasının Dövlət Himninin sözlərinin müəllifi kimdir?

- Mikayıl Müşfiq
- Cəfər Cabbarlı
- Hüseyn Cavid

√ Əhməd Cavad
- Məmməd Araz